AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ
1921

100

“Azərbaycan Pedaqoji İnstitutu böyük və çətin yol keçmişdir. Onun kollektivi Azərbaycan ümumtəhsil məktəbinin inkişafında böyük xidmət göstərmiş, institut xalq maarifi üçün yüksəkixtisaslı kadrlar ocağına çevrilmişdir. Özünü müəllimliyə həsr etmiş insan ən şərəfli insandır. İndiyə qədər yaranmış təməlin üzərində dayanan Azərbaycan təhsili bundan sonra daha da təkmilləşəcəkdir. Azərbaycan müəllimləri ən yüksək mənəviyyata, vətəndaşlıq hislərinə malik olan insanlardır”.

Heydər Əliyev
Azərbaycan xalqının Ümummilli lideri

“İxtisaslaşmış ali təhsil müəssisəsi kimi Azərbaycan Dövlət Pedaqoji Universiteti müəllim hazırlığı sahəsində və pedaqoji təhsilin inkişafı naminə bu gün də uğurlu fəaliyyəti ilə müstəqil Azərbaycanın inkişafına töhfələrini əsirgəmir. Universitetdə qabaqcıl elmi nailiyyətlərdən, innovativ təlim-tədris texnologiyalarından faydalanmaqla ali təhsilin məzmun və keyfiyyət göstəricilərinin təkmilləşdirilməsi istiqamətində zəruri addımlar atılır”.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

MÜNDƏRİCAT

Ön söz 5

ADPU-nun tarixi 7
ADPU-nun Tədris Kampusları 9
Nə üçün ADPU? 10
ADPU rəqəmlərdə 11
ADPU-da idarəetmə 12

ADPU-nun Fakültələri

Filologiya fakültəsi 13
Tarix və coğrafiya fakültəsi 14
Riyaziyyat fakültəsi 15
Kimya və biologiya fakültəsi 16
Məktəbəqədər təhsil fakültəsi 17
İncəsənət və fiziki tərbiyə fakültəsi 18
Fizika fakültəsi 19
İbtidai təhsil fakültəsi 20
SABAH qrupları 21

Elmi fəaliyyət 22
Magistratura, Doktorantura 23
Əlavə təhsil 24
ADPU-da keyfiyyət 25
Elmi tədqiqat strukturları 26
ADPU-nun dövri elmi nəşrləri 27
Beynəlxalq Əlaqələr 28
Kitabxana və nəşriyyat 30
Heydər Əliyev Mərkəzi və Heydər Əliyev adına muzey 31
İctimaiyyətlə əlaqələr və tələbələrlə effektiv əks-əlaqə mexanizmləri 32
Tələbə həyatı 34
Tibbi xidmətin təşkili 35

ADPU-nun Fakültələri

Şəki filialı 36
Quba Filialı 37
Cəlilabad Filialı 38
Şamaxı Filialı 39
Ağcabədi Filialı 40

ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci 41
ADPU tərkibində M.Rahim adına 7№-li baza məktəbi 42
Tələbələrin elmi tədqiqat işinin təşkili 43
Tələbə Gənclər Təşkilatı 44
Tələbə Həmkarlar İttifaqı Komitəsi 45
ADPU YAP Gənclər Birliyi 46
Təhsil Könüllüləri İctimai Birliyi 47
ADPU Türk Öğrenci Yönetim Konseyi 48

ADPU-da təqaüd imkanları 49

Cəfər Cəfərov
Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru, tarix elmləri doktoru, professor

Ön söz

Bu il ölkəmizin ən qocaman ali təhsil ocaqlarından biri - Azərbaycan Dövlət Pedaqoji Universitetinin yaradılmasının 100-cü ildönümü tamam olur. Azərbaycan ziyalılarının milli təəssübkeşliyi və fədakarlığı sayəsində yaradılmış universitet çətin və şərəfli yol keçmiş, milli düşüncənin inkişafına, pedaqoji və elmi-pedaqoji kadrların hazırlığına əvəzsiz töhfələr verən şöhrətli təhsil və elm müəssisəsinə çevrilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2021-ci il aprelin 17-də "Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illik yubileyinin qeyd edilməsi haqqında" Sərəncamı bir əsr ərzində əldə olunmuş nailiyyətlərə verilmiş ən yüksək qiymətdir. Sərəncamda universitetin ölkəmizin inkişafındakı xüsusi rolu vurğulanaraq qeyd olunur: *"İxtisaslaşmış ali təhsil müəssisəsi kimi Azərbaycan Dövlət Pedaqoji Universiteti müəllim hazırlığı sahəsində və pedaqoji təhsilin inkişafı naminə bu gün də uğurlu fəaliyyəti ilə müstəqil Azərbaycanın inkişafına töhfələrini əsirgəmir. Universitetdə qabaqcıl elmi nailiyyətlərdən, innovativ təlim-tədris texnologiyalarından faydalanmaqla ali təhsilin məzmun və keyfiyyət göstəricilərinin təkmilləşdirilməsi istiqamətində zəruri addımlar atılır".*

Ulu öndər Heydər Əliyev elm və təhsil məbədi Azərbaycan Dövlət Pedaqoji Universitetinin professor-müəllim və tələbə kollektivi ilə görüşlərinin birində demişdir: *"Azərbaycan Pedaqoji İnstitutu böyük və çətin yol keçib. Onun kollektivi Azərbaycan ümumtəhsil məktəbinin inkişafında böyük xidmət göstərmiş, institut xalq maarifi üçün yüksəkixtisaslı kadrlar ocağına çevrilmişdir".*

Fəaliyyətinə dövlət və hökümət tərəfindən, xüsusilə də ümummilli lider Heydər Əliyev və onun siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən yüksək qiymət verilən Azərbaycan Dövlət Pedaqoji Universitetinin bir əsrlik yubileyi ərəfəsindəyik. Ölkəmizdə yüksəkixtisaslı pedaqoji və elmi-pedaqoji kadrların hazırlanmasında ADPU-nun professor-müəllim heyətinin və onun məzunlarının xüsusi payı vardır. İllər ərzində Pedaqoji Universitet böyük inkişaf yolu keçməklə bərabər, zəngin ənənələrə malik elm və təhsil müəssisəsi kimi tanınmışdır. Pedaqogika, psixologiya və ayrı-ayrı fənlərin tədrisi metodikası məhz bu ali məktəbdə təşəkkül tapmış, inkişaf edərək indiki yüksək səviyyəsinə çatmışdır. 100 illik fəaliyyəti dövründə institut 160 mindən çox müəllim kadrı hazırlamış, bir çox ixtisaslar üzrə elmi-pedaqoji kadr hazırlığının mərkəzinə çevrilmişdir.

Ulu öndər Heydər Əliyevin mütərəqqi ideyalarının layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev müəllim adına, müəllim əməyinə yüksək qiymət verərək demişdir: *"Müəllim Azərbaycanda ən hörmətli insandır. Müəllimlər Azərbaycan cəmiyyətinin elitasıdır".*

Təhsil bilik, bacarıq və qabiliyyətlərin gənc nəslə öyrədilməsi və ötürülməsi

prosesidir. Təhsil geniş anlayışdır, onun müxtəlif pillələri, mərhələləri vardır. Təhsil sahəsində qarşıya qoyulan vəzifələr tədris prosesində gerçəkləşdirilir. Ali təhsil bütövlükdə təhsil sisteminin ən mühüm, ən vacib mərhələlərindən biridir. Çünki ali təhsil hər bir ölkənin insan kapitalının formalaşmasında böyük rol oynayır. İnsan kapitalı isə insanın malik olduğu qabiliyyət, qazandığı bilik, bacarıq və motivasiya imkanlarını müəyyən edir. Təhsil cəmiyyətin inkişafının özülünü təşkil etməklə yanaşı, həm də ölkənin təhlükəsizliyinin, sabitliyinin təmin edilməsində mühüm amil kimi çıxış edir. Dövlət başçımızın qeyd etdiyi kimi, *"Təhsil Azərbaycanın davamlı inkişaf strategiyasının ən öncül istiqamətlərindən biridir"*. Bu gün ölkəmizdə təhsil sahəsində islahatlar sürətlə həyata keçirilməkdədir. "Müasir müəllim kimliyi" formalaşdırmağa çalışaraq, bir vaxtlar böyük nüfuzu olan müəllim peşəsinə olan inamın və etibarın yüksəldilməsi üçün müasir dövrün tələbinə uyğun bilik və bacarığa sahib müəllimlərin yetişdirilməsi istiqamətində işlər əsas vəzifəmiz olaraq qalmaqdadır. Bu məqsədlə də şəxsə hərtərəfli bilik və bacarıqların verilməsi üçün pedaqoji təhsilin institusional əsasları, infrastrukturu və insan resursları inkişaf etdirilməkdədir.

Bu gün müəllim əməyinin stimullaşdırılması tədbirləri nəticəsində cəmiyyətimizdə müəllimin nüfuzu yüksəlmiş, istedadlı gənclərin müəllimlik peşəsinə marağı əhəmiyyətli dərəcədə artmışdır. Qazanılan uğurlar dövlətin təhsil sahəsinin davamlı inkişafına diqqət və qayğısının təzahürü, eyni zamanda, Azərbaycan müəlliminin fədakar əməyinin bəhrəsidir.

Universitetin əməksevər kollektivinə, həmçinin gələcəyimizin müəllimləri olacaq tələbələrə uğurlar arzu edirəm. Əminəm ki, onlar üzərinə düşən məsuliyyətdən irəli gələn vəzifələrə bundan sonra da yüksək həssaslıqla yanaşmaqla təmsil olunduqları təhsil məbədinin daha böyük zirvələr fəth etməsinə layiqli töhfələrini verəcəklər.

ADPU-nun tarixi

Azərbaycan Pedaqoji İnstitutu (indiki Azərbaycan Dövlət Pedaqoji Universiteti) 26 avqust 1921-ci ildə hökumətin qəbul etdiyi 66 saylı dekretlə alitəhsilli müəllim kadrları hazırlamaq üçün təsis edilib. Keçən bir əsrlik dövr ərzində daha da inkişaf edərək 8 fakültəyə malik ölkəmizin ən görkəmli ali məktəblərindən birinə çevrilib. İlk dövrlərdə Ali Pedaqoji Kişi və Ali Pedaqoji Qadın İnstitutları kimi fəaliyyətə başlasa da, böyük tarixi inkişaf yolu keçən Azərbaycan Pedaqoji İnstitutu XX əsrin 90-cı illərində Azərbaycan Dövlət Pedaqoji Universiteti adını alıb. ADPU-nun tarixinə və keçdiyi yola nəzər salanda görürük ki, Azərbaycan SSR Xalq Komissarları Sovetinin (XKS) sədri Nəriman Nərimanovun imzaladığı 1921- ci il, 26 avqust tarixli dekret əsasında 6 nəfər tələbə ilə milli dildə fəaliyyətə başlayan bu ilk ali pedaqoji təhsil ocağı yeni təşkil olunan I və II dərəcəli məktəbləri yüksəkixtisaslı pedaqoji kadrlarla təmin etmək məqsədilə yaradılmışdır. Bununla yanaşı, institut tədris və elmi-pedaqoji fəaliyyəti dövründə müxtəlif çətinliklərə məruz qalmışdır. İki dəfə (1927-1929-cu illər və 1941-1943-cü illərdə) Azərbaycan Dövlət Universiteti (indiki Bakı Dövlət Universiteti) ilə birləşdirilmişdir. Lakin zamanın bütün çətinliklərindən şərəflə çıxaraq Azərbaycanda milli mədəniyyətin, elm və təhsilin inkişafında xüsusi xidmətləri olan müəllim kadrları yetişdirməklə millətin mənəvi potensialının formalaşmasında önəmli rolunu qoruyub saxlamışdır.

ADPU ölkəmizdə ali pedaqoji məktəblər arasında universitet statusu alan ilk tədris və elm ocağıdır. Belə ki, 1991-ci ildə Nazirlər Kabinetinin müvafiq qərarı ilə bu ali məktəbə universitet statusu verilmişdir. Zəngin elm və təhsil ənənələrinə malik olan ADPU respublikamızda ali pedaqoji təhsilin bayraqdarı hesab edilir.

Qeyd etmək lazımdır ki, institutun ali təhsil ocağı kimi formalaşmasında və inkişafında Azərbaycan hökumətinin başçısı N.Nərimanov, xalq maarif komissarı D.Bünyadzadə, dövrün görkəmli ziyalıları – M.Quliyev, Ü.Hacıbəyli, V.Xuluflu, Ə.Übeydulin, B.Çobanzadə və sair ziyalıların xidməti əvəzsizdir.

100 il əvvəl yaranmış institutun ilk direktoru Odessa Universitetinin məzunu Fətulla bəy Rzabəyli, direktor müavini Tiflis Müəllimlər İnstitutunun məzunu Həbib bəy Mahmudbəyov olmuşdur.

Bu günədək ADPU-nun 160 mindən çox məzunu olub. İnstitut bərqərar olunarkən kadrları arasında bir nəfər də alimi olmayan ADPU bu günə kimi saysız-hesabsız akademiklər, elmlər doktorları, akademiyanın müxbir üzvləri professorlar, dosentlər, fəlsəfə doktorları və s. elm xadimləri hazırlayıb. Hazırda ADPU-da filiallar və Pedaqoji Kolleclə birlikdə təxminən

20 minə yaxın tələbə təhsil alır. Universitetdə 70-ə yaxın elmlər doktoru, 60-dan çox professor, 300-ə yaxın dosent, 350-dən çox fəlsəfə doktoru çalışır. ADPU-da ali təhsilin bakalavriat səviyyəsində 22 ixtisas, magistratura səviyyəsində isə 21 ixtisas üzrə pedaqoji kadr hazırlanır.

Azərbaycan Respublikası Prezidentinin 24 oktyabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda nəzərdə tutulan ən mühüm vəzifələrdən biri də müasir tələblərə cavab verən təhsil infrastrukturunun yaradılması və təhsil müəssisələri şəbəkəsinin rasionallaşdırılmasıdır. Dövlət Strategiyasının bu tələblərinə uyğun olaraq ölkə Prezidentinin 26 noyabr 2015-ci il tarixli Sərəncamı ilə Azərbaycan Müəllimlər İnstitutunun (AMİ) ADPU-ya qoşulması və onun filiallarının da ADPU-nun strukturuna daxil olması nəticəsində ADPU ölkədə pedaqoji kadr hazırlığı ilə məşğul olan vahid ixtisaslaşmış ali təhsil müəssisəsinə çevrilmişdir. Bununla yanaşı Nazirlər Kabinetinin 3 fevral 2016-cı il tarixli qərarı ilə Bakı Sənaye-Pedaqoji Kolleci Azərbaycan Dövlət Pedaqoji Kollecinə (ADPK) birləşdirilməklə ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci kimi fəaliyyət göstərməyə başlayıb. Qeyd edək ki, dövlət başçımızın 2016-cı il, 29 aprel tarixli Sərəncamı ilə ADPU-nun Qazax filialı Bakı Dövlət Universitetinə, Zaqatala filialı isə Azərbaycan Dövlət İqtisad Universitetinə verilib. Hazırda ölkənin 5 müxtəlif regionunda ADPU-nun Şəki, Quba, Ağcabədi, Cəlilabad və Şamaxı filialları fəaliyyət göstərir. Azərbaycan Respublikası Təhsil nazirinin 20 iyul 2016-cı il tarixli əmri ilə Bakı şəhərindəki Məmməd Rahim adına 7 nömrəli tam orta məktəb 2016-2017-ci tədris ilindən etibarən ADPU-nun baza məktəbi kimi müəyyən olunub. Bu əmrin verilməsi ölkəmizdə ardıcıl şəkildə həyata keçirilən təhsil islahatlarının, eləcə də yüksəkixtisaslı pedaqoji kadrların hazırlanması prosesinin tərkib hissəsidir və nəticə etibarilə təhsilin keyfiyyətinin yaxşılaşmasına xidmət edir.

ADPU-nun 100 illik tarixinin bütöv bir mərhələsində (1969-1987-ci illər və 1993-2003-cü illər) qazanılan uğurlar bilavasitə ümummilli liderimiz Heydər Əliyevin unudulmaz adı və çoxşaxəli fəaliyyəti ilə qırılmaz tellərlə bağlıdır. "Təhsil millətin gələcəyidir!" deyən ulu öndər Heydər Əliyev daim ADPU-ya yüksək qiymət vermişdir. Ümummilli lider Heydər Əliyev 5 dəfə ADPU-da olmuş, professor-müəllim və tələbə kollektivinə çox dəyərli tövsiyə və məsləhətlər vermiş, hər bir əməkdaşın arzu və istəkləri ilə maraqlanmışdır. Ulu öndərin xatirəsinə ehtiram əlaməti kimi ADPU-nun əsas tədris binasının foyesində abidəsi qoyulmuş, dahi şəxsiyyətə aid nadir eksponatların sərgiləndiyi, professor-müəllimlərin, tələbələrin və universitetin qonaqlarının ziyarət məkanına çevrilən Heydər Əliyev Muzeyi yaradılmışdır. Ulu öndərin zəngin irsinin gənc nəslə çatdırılması məqsədilə "Heydər Əliyev məktəbinin lektoriyası" təşkil edilmiş, ADPU-nun 2 saylı tədris binasında da möhtəşəm Heydər Əliyev Mərkəzi yaradılmışdır. Heydər Əliyevin irsini dərindən öyrənmək məqsədilə universitetin professor-müəllim heyəti, magistr və doktorantları üçün xüsusi kurslar təşkil edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2021-ci il aprelin 17-də "Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illik yubileyinin qeyd edilməsi haqqında" Sərəncamı bir əsr ərzində əldə olunmuş nailiyyətlərə verilmiş ən yüksək qiymətdir.

Fəxrlə deyə bilərik ki, SSRİ PEA-nın həqiqi və müxbir üzvü seçilən azərbaycanlı alimlər - M.Mehdizadə, A.Abbaszadə, H.Əhmədov, S.İmanov məhz ADPU-nun əməkdaşları olmuşlar. Böyük qürur hissi ilə bəyan edə bilərik ki, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) indiyə qədərki 11 prezidentinin 3-ü – Yusif Məmmədəliyev (2 dəfə) , Zahid Xəlilov və Həsən Abdullayev ADPU-nun məzunlarıdır.

Azərbaycanın Milli Qəhrəmanları Mirələkbər İbrahimov, Mətləb Quliyev, Şakir Salahov, "Zəfər" ordenli general-polkovnik Əli Nağıyev, "Azərbaycan Bayrağı" ordenli Malik Bayramov, Mürşid Məmmədov, böyük qələbə çaldığımız 44 günlük Vətən müharibəsində torpaqlarımızın mənfur düşməndən azad olunması yolunda canlarından keçmiş şəhidlərimizdən 12 nəfəri – Ağaqardaş Abbasov, İlkin Ağaquliyev, Elgün Əzizov, Ehtiram Hüseynli, Rəvan Lətifov, Cilingir Nəbiyev, Orxan Nəbiyev, Ceyhun Nüsrətli, Qoşqar Ömərov, Firdovsi Tahirov, Elvin Zakirov və yeganə xanım şəhidimiz Arəstə Baxışova müxtəlif illərdə ADPU-nu bitirmişlər.

ADPU-nun Tədris Kampusları

Səbail (əsas) tədris binası

Bakı şəh., AZ1000, Səbail rayonu,
Ü. Hacıbəyli küç., 68

Gənclik tədris binası

Bakı şəh., AZ1072, Nərimanov rayonu,
Akademik H. Əliyev küç., 104

Nəsimi tədris binası

Bakı şəh., AZ1007, Nəsimi rayonu,
N. Yusifbəyli küç., 41A

Təbriz tədris binası

Bakı şəh., AZ1008, Nəsimi rayonu,
K. Rəhimov küç., 13

Nə üçün ADPU?

- Çoxillik təcrübə əsasında formalaşdırılmış tədris və təlim ənənələri
- İnnovativ təlim metodları və texnologiyaları vasitəsilə təhsilin məzmununun səmərəli mənimsənilməsinin təmin edilməsi
- Təhsil müddətində tədris prosesinə dəstək və çoxsaylı xidmətlər
- ABŞ-ın tanınmış Corc Vaşinqton Universiteti ilə imzalanan beynəlxalq ikili Diplom Proqramı üzrə sazişə əsasən magistratura səviyyəsində Təhsil ixtisası üzrə tam ödənişsiz ikili diplom almaq şansı
- Danimarkanın Kopenhagen Universitet Kolleci (UCC) ilə Erasmus+ çərçivəsində imzalanmış "Fəaliyyət 1 - tələbə və heyət mobilliyi" müəssisələrarası müqaviləsindən, həmçinin Mövlanə Mübadilə Proqramından yararlanaraq tərəfdaş universitetlərdə mübadilə imkanları
- Tədqiqat imkanlarından istifadə edərək ixtisaslar üzrə təkmilləşmək
- SABAH qruplarında yüksək praktik təhsil almaq imkanı
- Azərbaycan, rus və ingilis bölmələri üzrə ali pedaqoji təhsil alma imkanları
- Ümumtəhsil məktəbləri, məktəbəqədər təhsil müəssisələri, elmi tədqiqat institutlarında pedaqoji praktika keçməklə əmək vərdişləri və təcrübə qazanmaq
- Beynəlxalq tələbə mühiti
- İkitərəfli əməkdaşlıqlar və layihələr çərçivəsində dəvət edilmiş xarici müəllimlərin mühazirə imkanlarından faydalanmaq
- Əcnəbi tələbələrə dəstək
- Beynəlxalq, regional konfranslardan, həmçinin təlim və seminarlardan yararlanmaq
- Tələbə təşkilatlarının işində və təşkil etdiyi müxtəlif tədbirlərdə iştirak
- ADPU-nun Ağcabədi, Quba, Şamaxı, Cəlilabad və Şəki filiallarında bakalavr pilləsində təhsil imkanları

ADPU rəqəmlərdə

18000 nəfərdən çox təhsilalan;
4000 nəfərə yaxın subbakalavr;
13000 nəfərə yaxın bakalavr;
650 nəfərədək magistr;
100 nəfərədək doktorant;
650 nəfərədək əlavə təhsil alan;
2200 nəfərdən çox təhsilverən heyət;
1600 nəfərə yaxın akademik heyət;
650 nəfərdən çox inzibati heyət;
60-dan çox professor;
70-dək elmlər doktoru;
300-ə yaxın dosent;
350-dən çox fəlsəfə doktoru.

ADPU-da idarəetmə

ADPU-da idarəetmə prosesini 8 fakültə, SABAH Mərkəzi, 34 kafedra, Tədris Departamenti (3 şöbə və 4 bölmədən ibarət), 14 şöbə və 5 mərkəz həyata keçirir. Həmçinin ADPU nəzdində Bakıda Azərbaycan Dövlət Pedaqoji Kolleci və Şəki, Quba, Şamaxı, Ağcabədi və Cəlilabadda ADPU-nun 5 filialı fəaliyyət göstərir. İdarəetmə prosesi 5 prorektorluqda birləşməklə universitet müvafiq olaraq qəbul edilmiş əsasnamə və təlimatlarla idarə olunur. ADPU-da tədris prosesinin idarəçiliyi departament sisteminin tədricən tətbiqinə əsaslandığından, kadr hazırlığı ixtisaslar üzrə ilk bakalavriat təhsilində fakültələrə və uyğun kafedralara, magistratura və doktorantura səviyyələrində Magistratura və doktorantura şöbəsinə və kafedralara, əlavə təhsil və təkrar ali təhsildə Davamlı təhsil və innovasiyalar şöbəsi vasitəsilə dekanlıqlara və kafedralara, yenidənhazırlanma təhsilində isə Davamlı təhsil və innovasiyalar şöbəsi və kafedralara təhkim olunmuşdur. Hazırda ADPU-da tədris prosesi Tədris Departamentinin əlaqələndirməsi ilə 8 fakültə, SABAH Mərkəzi, Magistratura və doktorantura şöbəsi, Davamlı təhsil və innovasiyalar şöbəsi və 34 kafedra tərəfindən idarə olunur. Bakalavriatura təhsili üzrə ümumi əlaqələndirmə Tədris işləri üzrə prorektorluq, magistratura və doktorantura səviyyəsində isə Elm və innovasiyalar üzrə prorektorluq tərəfindən həyata keçirilir. Hər tədris ilinin başlanğıcında təsdiq edilən ADPU-nun Akademik Təqviminə əsasən bütün tədris prosesi idarə olunur.

ADPU-nun Fakültələri

Filologiya fakültəsi

1921-ci ildə universitet fəaliyyətə başlayarkən ilk şöbələrdən biri də tarix-ədəbiyyat olmuşdur. 1933-cü ildən Dil-ədəbiyyat fakültəsi müstəqil fəaliyyətə başlamışdır. Fakültə yaranandan ona nüfuzlu alimlər rəhbərlik etmişdir.

Fakültə fəaliyyəti dövründə dilçilik sahəsində dünya səviyyəli tədqiqatlara imza atılmışdır və dil və ədəbiyyat sahəsində yüksək ixtisaslı müəllim kadrlarının hazırlığı həyata keçirilir.

Filologiya fakültəsində 2018-ci ildən yenilənmələr aparılıb, auditoriyalar və zallar, dəhlizlər yüksək səviyyədə təmir edilərək tələbələrin ixtiyarına verilib. Fakültədə Cəfər Xəndan auditoriyası fəaliyyət göstərir. "MEH" ədəbi dərnəyində istedadlı tələbələr cəmləşib. Fakültənin müstəqil "Filoloq" qəzeti nəşr olunur, həmçinin www.filologiya.az saytı fəaliyyət göstərir. Tələbələr saytda o cümlədən lazımi materialların əks olunduğu elektron kitabxanadan yararlana bilər.

Universitetdə ilk dəfə kredit sistemi Filologiya fakültəsində tətbiq olunmuşdur. 2020-ci ildən etibarən fakültənin "Linqvistika problemləri" adlı beynəlxaql elmi jurnalı təsis edilib. İldə 4 dəfə nəşr olunan jurnalda tanınmış alimlərin dilçiliyin aktual məsələlərindən bəhs edən tədqiqatları dərc edilir. Fakültə 12 yerli və xarici universitet və institutla sıx elmi əməkdaşlıq edir. Mütəmadi olaraq elmi seminar və konfranslar, o cümlədən beynəlxalq konfranslar təşkil edilir.

Kafedralar:

Müasir Azərbaycan dili kafedrası
Azərbaycan dilçiliyi kafedrası
Ədəbiyyat kafedrası
Azərbaycan dili və onun tədrisi texnologiyası kafedrası
Ədəbiyyatın tədrisi texnologiyası kafedrası
Xarici Dillər Mərkəzi

İxtisaslar:

Azərbaycan dili və ədəbiyyat müəllimliyi
İngilis dili müəllimliyi
Fransız dili müəllimliyi

Fakültədə bakalavriat və magistratura səviyyəsi üzrə 1500 nəfərdən çox tələbə təhsil alır.

Elmi-pedaqoji kadrlar:

25 nəfərdən çox elmlər doktoru və fəlsəfə doktoru, professor
50 nəfərədək fəlsəfə doktoru, dosent

ADPU-nun Fakültələri

Tarix və coğrafiya fakültəsi

2016-cı ilin mart ayının 9-da ADPU Elmi şurasının 3/87 əmri ilə ləğv olunmuş "Tarix" və "Coğrafiya və Çağırışaqədər hazırlıq" fakültələrinin bazasında "Tarix və coğrafiya" fakültəsi yaradılmışdır. Həmin tarixə qədər hər iki fakültə uzun yol keçmişdir. Azərbaycan Pedaqoji İnstitutu təşkil olunduqdan sonra 1922-ci ilin sentyabrında institutda Tarix-ictimaiyyat şöbəsi yaradılıb. 1934-cü ildə isə müstəqil Coğrafiya fakültəsi təşkil edilib.

Fakültənin yerləşdiyi II tədris binasında Heydər Əliyev Mərkəzi, idman zalı, musiqi otağı, böyük akt zalı, iki kiçik akt zalları, inkluziv mərkəz, elektron lövhəli auditoriyalar, kitabxana və internetlə təchiz edilmiş oxu zalı, 200 yerlik yeməkxana fəaliyyət göstərir. Fakültədə bir çox beynəlxaq konfranslar, elmi seminarlar, olimpiadalar, dünyaca tanınmış alimlərlə görüşlər, onların mühazirələri, kitab təqdimatları, sərgilər, professorların mühazirələri və s. kimi tədbirlər yüksək səviyyədə təşkil edilir. Məsələn, İNOCTE, Şərqi və Qərbi türk dünyasının ortaq tarixi dövrləri və münasibətləri beynəlxalq konfransı, (AMEA, ADPU, Xəzər Universiteti, Türkiyə Səlcuq Universiteti, Sütçü İmam Universiteti, Türk Tarix Qurumunun əməkdaşlığı ilə (fakültənin dəstəyi ilə, 12-14 sentyabr 2017-ci il).

Kafedralar:

Azərbaycan tarixi kafedrası
Ümumi tarix və tarixin tədrisi texnologiyası kafedrası
Ümumi coğrafiya kafedrası
Azərbaycan coğrafiyası və coğrafiyanın tədrisi texnologiyası kafedrası
Ümumi pedaqogika kafedrası
Fəlsəfə və sosial elmlər kafedrası

İxtisaslar:

Tarix müəllimliyi
Tarix və coğrafiya müəllimliyi
Coğrafiya müəllimliyi
Sosial iş

Fakültədə bakalavriat və magistratura səviyyəsi üzrə 1500 nəfərdən çox tələbə təhsil alır.

Elmi-pedaqoji kadrlar:

10 nəfərədək elmlər doktoru, professor
35 nəfərədək fəlsəfə doktoru, dosent

ADPU-nun Fakültələri

Riyaziyyat fakültəsi

Ali Pedaqoji İnstitut yaradılarkən burada təşkil edilən üç şöbədən biri Fizika-riyaziyyat şöbəsi idi. Fizika-riyaziyyat fakültəsi 1969-cu ildə iki müstəqil fakültəyə bölündü: Riyaziyyat və Fizika fakültəsi. Fakültəni indiyə qədər 15 mindən çox mütəxəssis bitirmişdir.

Fakültədə fəaliyyət göstərən elmi-metodik seminarda həm də respublikanın digər ali məktəblərinin əməkdaşları da öz elmi araşdırmalarının nəticələri barədə məruzələr edirlər. Əməkdaşların məqalələri yüksək reytinqli elmi jurnallarda çap olunur.

Fakültədə inzibati otaqlar, 20 geniş tədris auditoriyası (onlardan 4-ü mühazirə auditoriyası) və 3 laborotoriya tədrisin keyfiyyətli təşkilinə xidmət edir. Həmçinin universitetin əsas tədris binasının böyük və kiçik akt zalları, iki böyük idman zalı, yeniş yeməkxana və s. də tələbələrin ixtiyarındadır.

Riyaziyyat fakultəsi riyazi analizin fundamental məsələlərinin həlli və aktual problemləri, kəsilməz inikasların iterativ cəbrləri, funksional fəzalarda müntəzəm cəbrlər, diferensial və inteqral tənliklər, metodika, hesablama riyaziyyatı, informatikanın tədrisi metodikası, həmçinin orta məktəbdə dərsin, metodların, formaların və vasitələrin təkmilləşdirilməsi istiqamətlərində elmi fəaliyyətini davam etdirir.

Kafedralar:

Riyazi analiz kafedrası
Cəbr və həndəsə kafedrası
Kompüter elmləri kafedrası
Riyaziyyat və onun tədrisi texnologiyası kafedrası

İxtisaslar:

Riyaziyyat müəllimliyi
Riyaziyyat və infomatika müəllimliyi
İnformatika müəllimliyi

Fakültədə bakalavriat və magistratura səviyyəsi üzrə 1500 nəfərdən çox tələbə təhsil alır.

Elmi-pedaqoji kadrlar:

10 nəfərədək elmlər doktoru, professor
30 nəfərdən çox fəlsəfə doktoru, dosent



ADPU-nun Fakültələri

Kimya və biologiya fakültəsi

İlk vaxtlar təbiyyat-kimya-coğrafiya və sonra təbiyyat-kimya şöbəsi kimi fəaliyyət göstərən fakültədə botanika, zoologiya, fiziologiya, kimya, geologiya və minerologiya, habelə həmin fənlərin metodikası üzrə nəzəri kurs və təcrübi məşğələləri keçirilirdi. 2015-ci ildən Kimya və Biologiya fakültələri birləşdirilmişdir. Fakültədə ilk tədqiqat işlərini aparmış məşhur məzunlardan AMEA-nın akademikləri Y.Məmmədəliyev, B.Zeynalov, müxbir üzvləri H.Əfəndiyev, Ş.Məmmədov, M.Mövsümzadə, C.Zülfüqarlı, kimya elmləri doktorları və professorlardan Y.Musabəyov, İ.Bağbanlı, Ş.Əliyev, P. Rzazadə, A.Verdizadə və onlarla başqalarının adlarını iftixarla çəkmək olar.

Fakültədə «Kimyagər» və «Gənc bioloq» adlı divar qəzeti müntəzəm olaraq çap olunur. İndiyə qədər fakültənin 15.000-dən çox məzunu olmuşdur.

Fakültədə 1 zooloji muzey, 27 auditoriya, 21 laboratoriya və 2 elmi tədqiqat laboratoriyası tələbələrin ixtiyarındadır.

Fakültənin müvafiq kafedralarının əməkdaşları tərəfindən son illərdə bir neçə elmi tədqiqat işləri həyata keçirilmiş, elmi əsərlər və dərslik, proqram və metodik vəsaitlər nəşr olunur. Son illərdə fakültə əməkdaşlarının nəşrləri: dərslik - 45, dərs vəsaiti - 68, metodik vəsait - 30. Fakültədə tədqiqat işlərindən əlavə tələbələrin elmi fəaliyyətinin təşkili məqsədi ilə mütəmadi "Bilik olimpiadası" və Tələbə Elmi Cəmiyyətinin konfrans və seminarları keçirilir.

Kafedralar:

Biologiya və onun tədrisi texnologiyası kafedrası
Fiziologiya kafedrası
Ümumi kimya və kimyanın tədrisi texnologiyası kafedrası
Analitik və üzvi kimya kafedrası

İxtisaslar:

Kimya müəllimliyi
Kimya və biologiya müəllimliyi
Biologiya müəllimliyi

Fakültədə bakalavriat və magistratura səviyyəsi üzrə 1000 nəfərdən çox tələbə təhsil alır.

Elmi-pedaqoji kadrlar:

10 nəfərdən çox elmlər doktoru, professor
45 nəfərədək fəlsəfə doktoru, dosent

ADPU-nun Fakültələri

Məktəbəqədər təhsil fakültəsi

Fakültə müstəqil olaraq 1982-ci ildən fəaliyyət göstərir. 2019-cu ildən Məktəbəqədər təhsil fakültəsi adlanır. Fakültədə "Loqopedlər" tələbə elmi seminar klubu və "Gənc pedaqoq" tələbə dərnəyi fəaliyyət göstərir. 2018-2019-cu tədris ilində fakültədə "Psixoloji Mərkəz" yaradılıb ki, mərkəzin əməkdaşları universitetin 4 tədris binasında tələbə və əməkdaşlara psixoloji xidmət göstərirlər. Fakültədə Polşa Respublikasının Azərbaycandakı səfirliyi ilə birgə yaradılmış "Uşaq İnkişaf Mərkəzi"ndə tələbələr praktik məşğələlər keçirlər. Medeks şirkəti ilə əməkdaşlıqla fakültədə loqopedik avadınlıqlarla təchiz edilmiş kabinet yaradılıb.

Professor-müəllim heyəti tərəfindən 2011-2021-ci illər ərzində 37 monoqrafiya, 85 dərslik və dərs vəsaiti, 69 metodik vəsait, 34 impakt faktorlu, 1019 xarici və respublika əhəmiyyətli elmi məqalə, 268 proqram nəşr edilmişdir. Fakültə Polşa səfirliyi, Kopenhagen Universitet Kolleci, Belarus Dövlət Pedaqoji Universiteti, Özbəkistan Andican Universiteti, «Medeks» şirkəti, BDU, BSU, ATİ, Psixologiya Elmi Tədqiqat İnstitutu, "Cahan" Holdinq, AMEA Fəlsəfə institutunun «Sosial psixologiya şöbəsi, Anadolu liseyi, müxtəlif psixoloji, autizm, daun, nitq inkişafı mərkəzləri ilə sıx əməkdaşlıq edir. Fakültənin elmi potensial artmaqdadır.

Məktəbəqədər təlim və tərbiyə ixtisasının tələbələri uşaq bağçalarında, Təhsildə sosial-psixoloji xidmət ixtisasının tələbələri ümumtəhsil məktəbləri və psixoloji mərkəzlərdə, Korreksiyaedici təlim ixtisasının tələbələri isə xüsusi və inteqrativ məktəblər və reabilitasiya mərkəzlərində pedaqoji təcrübə keçirlər.

Kafedralar:

Məktəbəqədər təhsilin pedaqogikası kafedrası
Ümumi psixologiya kafedrası
Pedaqoji psixologiya kafedrası
Xüsusi təhsil kafedrası

İxtisaslar:

Məktəbəqədər təlim və tərbiyə
Korreksiyaedici təlim
Təhsildə sosial-psixoloji xidmət

Fakültədə bakalavriat və magistratura səviyyəsi üzrə 1500 nəfərə qədər tələbə təhsil alır.

Elmi-pedaqoji kadrlar:

Bir neçə elmlər doktoru, professor
20 nəfərədək fəlsəfə doktoru, dosent

ADPU-nun Fakültələri

İncəsənət və fiziki tərbiyə fakültəsi

ADPU-da "Təsviri incəsənət müəllimliyi" ixtisası 1971-ci ildən, "Musiqi müəllimliyi" ixtisası 1980-ci ildən "Hərbi rəhbər və bədən tərbiyəsi müəllimliyi" ixtisası isə 1981-ci ildən Cənubi Qafqaz ölkələrində ilk dəfə olaraq Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə açılmışdır. Müxtəlif fakültələrdə tədris olunan bu ixtisaslar 2016-cı ildən etibarən İncəsənət və fiziki tərbiyə fakültəsinin tərkibində cəmləşmişdir.

Fakültədə görkəmli pedaqoqlar, musiqişünaslar, rəssamlar, sənətşünaslar, heykəltəraşlar, məşqçilər və hərbçilər çalışır. Fakültənin iki şəhid məzunu – M.İbrahimov və M.Quliyev "Azərbaycanın Milli Qəhrəmanı"dır. Hazırda fakültədə qocaman rəssam-müəllimlər R.Səmədov, dos. T.Məmmədov; həmçinin məzunlarımız, əməkdar rəssamlar R.Rəsulov, F. Zeynalov, əməkdar məşqçi, əməkdar idman ustası Ə.Mehdiyev; dosentlər Ç.Rüstəmov, L.Həsənova, Y. Cəlilova, F.Hidayətova və s. fəaliyyət göstərirlər. Fakültədə 29 ixtisas auditoriyası, 1 idman zalı, 1 kiçik zal, 1 atıcılıq otağı tələbələrin ixtiyarındadır.

Son 5 il ərzində fakültənin müvafiq kafedralarının alimləri tərəfindən elmi araşdırmalar aparılarılıb, müxtəlif ixtisas sahələrinə aid elmi əsərlər nəşr edilmişdir. Ümumilikdə son 5 ildə fakültə üzrə 131 elmi əsər çap olunub.

Kafedralar:

Təsviri incəsənət və onun tədrisi texnologiyası kafedrası
Fiziki tərbiyə və çağırışaqədər hazırlığın tədrisi texnologiyası kafedrası
Musiqi və onun tədrisi texnologiyası kafedrası

İxtisaslar:

Musiqi müəllimliyi
Təsviri incəsənət müəllimliyi
Fiziki tərbiyə və çağırışaqədər hazırlıq müəllimliyi

Fakültədə bakalavriat və magistratura səviyyəsi üzrə 1000 nəfərə qədər tələbə təhsil alır.

Elmi-pedaqoji kadrlar:

Bir neçə elmlər doktoru, professor, fəlsəfə doktoru, dosent, əməkdar incəsənət xadimi və əməkdar rəssamlar

ADPU-nun Fakültələri

Fizika fakültəsi

Fakültə fəaliyyətə Ali Pedaqoji İnstitut yaradılarkən yaranan 3 şöbədən biri kimi başlamışdır. Fakültənin nəzdində Həsən Abdullayev və Abasqulu Abaszadə adına auditoriya, Elm muzeyi, "Praktik bacarıqlar" mərkəzi, "Bacarıqlı əllər", "Young Physics" dərnəkləri və çoxsaylı tədris laboratoriyaları fəaliyyət göstərir. Son illərdə fakültənin tələbələri MİQ imtahanlarında uğur qazanaraq "fizika müəllimliyi" və "texnologiya müəllimliyi" ixtisasları üzrə respublika birincisi olmuşlar. İlk dəfə olaraq fakültədə elmi tədqiqat qrupu yaradılmış və bu qrup xaricdə yerləşən bir çox mərkəzlərlə, - Birləşmiş Nüvə Tədqiqatları İnstitutu (Dubna, Rusiya), Duy Tan Universiteti (Da Nang, Vyetnam), Bərk Cisimlər və Yarımkeçiricilər Fizikası İnstitutu (Minsk, Belarus) və Bursa Texniki Universiteti ilə (Bursa, Türkiyə) beynəlxalq əlaqələr qurmuş, alınmış tədqiqat nəticələri Web of Science bazasına daxil olan yüksək impakt faktorlu beynəlxalq jurnallarda (Modern Physics Letters B, International Journal of Modern Physics B, Semiconductors, Journal of Korean Physical Society) dərc edilmiş, tədqiqat qrupu Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondunun Elm-Təhsil-İnteqrasiya qrant müsabiqəsinin qalibi olmuşdur. Qrup üzvlərinin təşəbbüsü ilə Jomard Publishing nəşriyyatının nəzdində "Advanced Physical Research" jurnalı yaradılmışdır. Bakalavr və magistrlərin yüksək ixtisaslara yiyələnmələri üçün fakültədə hər cür şərait yaradılmışdır. Aparılan işlər, keçirilən çoxsaylı tədbirlər tələbələrin elmlərə yiyələnməsinə, gənc sərişteli müəllim kimi formalaşmasına xidmət edir.

Kafedralar:

Ümumi fizika kafedrası
Fizikanın tədrisi texnologiyası kafedrası
Əməyin texnologiyası kafedrası

İxtisaslar:

Fizika müəllimliyi
Texnologiya müəllimliyi

Fakültədə bakalavriat və magistratura səviyyəsi üzrə 800 nəfərdən çox tələbə təhsil alır.

Elmi-pedaqoji kadrlar:

10 nəfərədək elmlər doktoru, professor
30 nəfərədək fəlsəfə doktoru, dosent
10 nəfərədək fəlsəfə doktoru, baş müəllim

ADPU-nun Fakültələri

İbtidai təhsil fakültəsi

Pedaqoji Universitetin ən böyük fakültələrindən biri sayılan İbtidai təhsil fakültəsi 1958-ci ildə fəaliyyətə başlamışdır. Fakültədə "Təhsilin əsasları" ixtisaslaşdırılmış auditoriyası, "Pedaqoji təhsilin problemləri" elmi tədqiqat laboratoriyası, 2 kompüter sinfi, Sağlam təhsil pedaqogikası mərkəzi və Sağlam təhsil auditoriyası yaradılıb. Ölkədə pedaqogika tədrisinin əsasları burada yaradılıb. ADPU-da "Eksperimental qrupların yaradılması haqqında" əmrə müvafiq olaraq fakültədə ingilis qrupu təşkil edilmişdir. Bu qruplarda bütün fənlər ingilis dilində tədris edilir.

Məqsədimiz: Yeni düşüncəyə, təhsil-tərbiyə texnologiyasına, əxlaqi- mənəvi saflığa , yüksək peşə və ixtisas hazırlığına, ümummədəni kompetensiyalara malik ibtidai sinif müəllimi hazırlamaq.

Missiyamız: İbtidai təhsil fakültəsində təhsilverici, tərbiyəedici və inkişafetdirici təlim mühiti yaratmaq.

Hədəfimiz: İbtidai sinif müəllimi hazırlığında yüksək maddi-texniki bazaya, peşəkar professor-müəllim heyətinə, müasir tələblərə cavab verən mükəmməl təhsil proqramlarına malik fakültə olmaq.

Xarici əlaqələr: Leninqrad Dövlət Universitetinin Pedaqoji fakültəsi (RF), Hacəttəpə Universitetinin Təhsil fakültəsi (Türkiyə), Finlandiyanın Saymon Universiteti, Səmərqənd Dövlət Universitetinin Pedaqoji fakültəsi və s.

Pedaqoji təcrübə: Tələbələr Bakı şəhərinin ən qabaqcıl ümumtəhsil məktəblərində 4 ay pedaqoji təcrübədə olur, müəllimlik peşəsinin sirrlərinə yiyələnirlər.
İndiyədək fakültənin 20 minədək məzunu olmuşdur.

Kafedralar:

İbtidai təhsilin pedaqogikası kafedrası
Riyaziyyatın ibtidai kursunun tədrisi texnologiyası kafedrası

İxtisaslar:

İbtidai sinif müəllimliyi

Fakültədə bakalavriat və magistratura səviyyəsi üzrə 1500 nəfərdən çox tələbə təhsil alır.

Elmi-pedaqoji kadrlar:

Bir neçə elmlər doktoru, professor
20 nəfərədək fəlsəfə doktoru, dosent
10 nəfərədək pedaqogika üzrə fəlsəfə doktoru, baş müəllim
Bir neçə pedaqogika üzrə fəlsəfə doktoru, müəllim

SABAH qrupları

«SABAH qrupları» layihəsi Azərbaycan Respublikası Təhsil Nazirliyinin təşəbbüsü ilə 2014/2015-ci tədris ilində 34 ixtisas üzrə 7 dövlət ali təhsil müəssisəsində yaradılıb. Həmin tədris ilində Azərbaycan Dövlət Pedaqoji Universitetinin SABAH qrupları Riyaziyyat və informatika müəllimliyi və İbtidai sinif müəllimliyi ixtisasları üzrə 21 tələbə ilə tədris fəaliyyətinə başlayıb. 2016/2017-ci tədris ilində isə ADPU-nun Sabah qruplarının ilk buraxılışı olub. ADPU-da SABAH qruplarınının ümumi koordinasiyasını SABAH Mərkəzi həyata keçirir.

Məqsədini nəzərə alaraq SABAH qrupları qarşısında aşağıdakı vəzifələr durur:

- Ali təhsil sahəsində davamlı, uzunmüddətli, hərtərəfli və əhatəli keyfiyyət dəyişikliklərinin həyata keçirilməsi üçün zəruri mühit yaratmaq
- Gənclərin fərdi və peşəkar inkişafına dəstək olmaq
- Dünyanın aparıcı universitetləri ilə əməkdaşlıq layihələri, elmi tədqiqat, təcrübə və tələbə mübadilələrini genişləndirmək
- Əmək bazarının tələblərinə uyğun olaraq SAvadlı, BAcarıqlı və Hazırlıqlı mütəxəssislər yetişdirmək

SABAH layihəsinin üstünlükləri:

Tələbələrə əlavə təqaüd
Bölgələrdə qeydiyyatda olanlar üçün ödənişsiz yataqxana
Xarici mübadilə proqramları
Elmi-nəzəri biliklərin praktik tətbiqi əsasında müasir təşkilat və müəssisələrdə tədris və istehsalat təcrübələri
Seçilmiş qabaqcıl müəllim-mütəxəsislər
Müasir əmək bazarının tələblərinə uyğun kadrların hazırlanması, daha cazibədar namizəd imkanı
Akademik və biznes mühitləri arasında əlaqələrin genişləndirilməsi
Tələbələrin universitetlərarası qarşılıqlı əlaqələri, müxtəlif tədbirlərdə birgə fəaliyyəti və aktivliyi

ADPU-nun SABAH qruplarındakı ixtisaslar:

İbtidai sinif müəllimliyi
Riyaziyyat və informatika müəllimliyi
Məktəbəqədər təlim və tərbiyə
Azərbaycan dili və ədəbiyyatı müəllimliyi

Hazırda ADPU-nun SABAH qrularında 4 ixtisas üzrə 300-ə qədər tələbə təhsil alır.

Elmi fəaliyyət

ADPU-da təhsil proqramları üzrə pedaqoji kadr hazırlığı bakalavriatura, magistratura, doktorantura səviyyələrində, həmçinin əlavə təhsil proqramları üzrə Azərbaycan Respublikasının təhsil qanunvericiliyinin tələblərinə uyğun aparılır.

Bakalavriat səviyyəsində təhsil proqramları üzrə hazırlığın məzmun və strukturunun təkminləşdirilməsi istiqamətində keçən dövrdə aşağıdakı tədbirlər həyata keçirilmişdir:

- Təhsil Nazirliyi ilə Avropa İttifaqının Tvininq Layihəsi çərçivəsində Təhsil İnstitutu ilə birlikdə məktəbəqədər təhsil, ibtidai təhsil, təhsildə sosial-psixoloji xidmət və korreksiyaedici təlim ixtisaslarının tədris planlarının məzmununun yenilənməsi və müəllimlər üçün təlimlərin təşkil olunması davam edir.

- Avropa İttifaqının EQAC layihəsi çərçivəsində Ali Təhsil üzrə Avropa Keyfiyyət Standartlarına uyğun olaraq tələbəmərkəzli, əmək bazarına yönəlmiş, təlim nəticələri dəqiq müəyyənləşdirilmiş tədris planlarının hazırlanması üzrə təlimlər, BMT-nin 17 Dayanıqlı İnkişaf Məqsədlərinə, YUNESKO-nun davamlı inkişaf təhsili üzrə 2017-ci il təlimatlarına əsaslanan işlərin aparılması.

- Avropa İttifaqının PETRA layihəsi çərçivəsində ADPU müəllimlərinin bacarıqlarının artırılması üzrə "Tədris və Təlim Mərkəzi" yaradılmışdır.

- ADPU ilə Neyron Şirkəti arasında bağlanmış müqaviləyə əsasən tədris prosesinin elektronlaşdırılması prosesi aparılmış, E-Tədris portalı yaradılmışdır.

Magistratura

Azərbaycan Dövlət Pedaqoji Universitetində Magistratura və doktorantura şöbəsi 1997-ci ildə yaradılmışdır. Magistr dərəcəsi iki il müddətində peşə yönümündən asılı olaraq öncədən alınmış təhsili elmi cəhətdən dərinləşdirməyə və əlavə ixtisasa yiyələnməyə xidmət edir. ADPU-da magistratura dərəcəsi üzrə 8 fakültədə və SABAH qruplarında 18 istiqamət üzrə 21 ixtisasda peşəkar kadrlar hazırlanır. "2019 - 2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində ADPU və ABŞ-ın Corc Vaşinqton Universiteti arasında 31 yanvar 2020-ci il tarixində ikili diplom proqramı üzrə müqavilə imzalanıb. Müqaviləyə əsasən müvafiq ixtisas üzrə universitetin magistratura pilləsini bitirən tələbələr hər iki universitetin diplomunu əldə edə biləcək. Cari tədris ilindən etibarən magistratura səviyyəsində təhsil üzrə MBA (Təhsilin təşkili və idarə edilməsi), Təlim və tədrisin təşkili və metodikası üzrə SABAH magistratura və Gənclərlə iş ixtisaslaşmaları üzrə mütəxəssis hazırlığına başlanılıb. Bu yeni ixtisaslar üzrə tədris prosesini effektiv təşkil etmək məqsədi ilə universitetdə yeni xüsusi kafedra yaradılıb.

Hazırda ADPU-da 650 nəfərədək magistr təhsil alır.

Doktorantura

Doktorantura Azərbaycan Respublikasında ali təhsilin ən yüksək səviyyəsi, yüksəkixtisaslı elmi və elmi-pedaqoji kadrların hazırlanması, doktorluq elmi dərəcəsinin alınmasını həyata keçirən yüksək səviyyəli elmi-pedaqoji kadr hazırlığı formasıdır. Müvafiq elmi dərəcələrin (elm sahələri göstərilməklə, fəlsəfə doktoru və elmlər doktoru) verilməsi ilə başa çatır. ADPU-da doktorantura təhsili 8 fakültədə 17 istiqamət üzrə 37 ixtisasda həyata keçirilir. Hazırda ADPU-da 100 nəfərə qədər doktorant təhsilini davam etdirir.

Əlavə təhsil

Əlavə təhsil fasiləsiz təhsilin və peşə hazırlığının tərkib hissəsi olmaqla, peşə ixtisas təhsilinin hər hansı pilləsini bitirmək haqqında dövlət sənədi olan hər bir vətəndaşın fasiləsiz təhsil almaq imkanını təmin edir. Əlavə təhsil peşə hazırlığı səviyyəsinin yüksəldilməsi və təkmilləşdirilməsi, onların daim dəyişən və yeniləşən əmək şəraitinə uyğunlaşdırılması, yaşlı vətəndaşların ölkənin sosial, iqtisadi, siyasi və mədəni həyatında fəal və səmərəli iştirakının təmin edilməsi vəzifəsini daşıyır. Əlavə təhsili həyata keçirən şöbə Azərbaycan Dövlət Pedaqoji Universitetində 1995-ci ilin əvvəlində İxtisasartırma fakültəsi kimi yaranmış, 1995-ci ilin oktyabrından 2010-cu ilə qədər İxtisasartırma və yenidənhazırlanma fakültəsi kimi, 2010-2016-cı illərdə Əlavə təhsil fakültəsi, 2016-cı ildən isə Davamlı təhsil və təlim şöbəsi kimi fəaliyyət göstərmişdir. 2019-cu ilin avqust ayından şöbə Davamlı təhsil və innovasiyalar adı ilə fəaliyyətini davam etdirir.

Əlavə təhsil aşağıdakı istiqamətləri əhatə edir:

- kadrların yenidən hazırlanması;
- stajkeçmə və kadrların təkmilləşdirilməsi;
- təkrar ali təhsil;
- dərəcələrin yüksəldilməsi.

İxtisasartırma təhsilinin əsas məqsədi hər bir işçinin və ya mütəxəssisin ixtisası üzrə intellektual və peşə hazırlığı səviyyəsinin yüksəldilməsi və təkmilləşdirilməsini, daim dəyişən və yeniləşən əmək şəraitinə uyğunlaşdırılmasını, ölkənin sosial, iqtisadi, siyasi və mədəni həyatında fəal və səmərəli iştirakını təmin etməkdir. İxtisasartırma təhsilinin kurikulum modeli işlənmişdir və ənənəvi üsullardan fərqli olaraq təhsilin bu sahəsi yeni model əsasında həyata keçirilir.

İxtisaslar:

Qoşa ixtisaslar istisna olmaqla əksər ixtisaslar üzrə təkar ali təhsil və yenidənhazırlanma təhsili həyata keçirilir.

.

ADPU-da keyfiyyət

Son 5 il ərzində ADPU-da yalnız kəmiyyət deyil, əsaslı keyfiyyət dəyişiklikləri də qeydə alınır və bu dəyişikliklər ancaq təhsilverənlərdə deyil, həmçinin təhsilalanlarda da müşahidə edilir. ADPU qəbul planı 97-98 faiz dolan ali məktəb olmaqla yanaşı, 500-dən çox bal toplayıb ADPU-ya qəbul olanların sayı 2014/2015-ci tədris ilində 6 nəfərdən növbəti illərdə anoloji olaraq 190, 117, 281, 566 və 2019/2020-ci tədris ilində isə 365 nəfərədək yüksəlib.

Keçən dövr ərzində keyfiyyət göstəricisi kimi universitetə qəbul olanların orta balı da xeyli yüksəlib. Belə ki, 2015/2016-cı tədris ilində orta bal 397 olubsa, 2017/2018-ci tədris ilində bu göstərici 419 baladək yüksəlib. 2019/2020-ci tədris ilində ADPU-ya qəbul olunan 2298 nəfər tələbədən 1442 nəfəri dövlət sifarişi ilə qəbul olunub.

Hazırda ADPU tələbələrinin 70 faizinə təqaüd almaq imkanı yaradıb və bu nisbətin yaxın gələcəkdə 100 faizə çatdırılması hədəflənir.

Əlavə olaraq ADPU hər semestr universitet üzrə ən yüksək akademik nəticə göstərən tələbələr üçün "Heydər Əliyev" adına, müxtəlif fakültələr üzrə isə "Abbasqulu ağa Bakıxanov", "Qafur Rəşad Mirzəzadə", "Nizami Gəncəvi", "akademik Zahid Xəlilov", "akademik Mehdi Mehdizadə", "akademik Həsən Abdullayev", "akademik Yusif Məmmədəliyev", "Üzeyir Hacıbəyli" və "Abdulla Şaiq" adına 170 manatlıq adlı təqaüdlər təqdim edir.

Elmi tədqiqat strukturları

ADPU-da elmi və elmi-təşkilati fəaliyyət 8 fakültə və SABAH Mərkəzi üzrə 33 kafedrada, o cümlədən Azərbaycanda ilk dəfə 2017-ci ildə yaradılmış Türksoy kafedrasında, Elmi Tədqiqat Mərkəzində, Elmi-təşkilati şöbə və Magistratura və doktorantura şöbələrində həyata keçirilir. Son dövrlərdə təsdiq edilmiş mövzu planı əsasında 741 nəfərdən ibarət professor-müəllim heyəti 67 istiqamətdə, 106 problem üzrə 386 mövzuda elmi tədqiqat işlərini davam etdirmiş, tətbiqi və innovasiya xarakterli ən əhəmiyyətli 164 iş tədris prosesində praktik tətbiq hüququ qazanmışdır.

Son illər inkişaf etmiş dünya dövlətlərində elm və təhsilin bir-biri ilə əlaqələndirilməsinə və hər iki sahənin innovasiyaların tətbiqi yolu ilə paralel şəkildə inkişaf etdirilməsinə xüsusi diqqət verilir. Elm-Təhsil-İnnovasiya üçbucağının eyni bir müstəviyə gətirilməsi və balanslı şəkildə inkişaf etdirilməsi, o cümlədən "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf konsepsiyası, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" və "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" strateji sənədlərində nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi məqsədi ilə ADPU-da davamlı işlər görülür. Elm və təhsil sahəsində beynəlxalq əlaqələr çərçivəsində Azərbaycan Dövlət Pedaqoji Universiteti dünyanın 52 nüfuzlu universiteti ilə əməkdaşlıq müqaviləsi imzalamışdır.



ADPU-nun dövri elmi nəşrləri

Professor-müəllim heyətinin elmi tədqiqat işlərinin informasiya təminatını reallaşdırmaq üçün ADPU "Clarivate Analytics (Thomson Reuters)" Agentliyi tərəfindən "Web of Science" Məlumat Platformasına qoşulmuşdur. ADPU-da Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması üçün tövsiyə edilən dövri elmi nəşrlərin sırasına daxil edilmiş 6 (altı) dövri elmi jurnal nəşr edilir. Bu jurnallarda universitet əməkdaşları ilə yanaşı, respublikamızın, eləcə də xarici ölkə mütəxəssislərinin də məqalələri çap olunur.

Universitetin elmi plagiatla mübarizə üzrə daxili sistemi qurulmuşdur. Əməkdaşların beynəlxalq istinadlı jurnallarda çap olunmuş əsərlərinin sayı son 5 ildə dəfələrlə artmışdır. Bu nəticələr "Clarivate Analytics" elmi bazası tərəfindən də qiymətləndirilmiş, ADPU mükafatlandırılmışdır.

Nəşr olunan dövri elmi jurnallar:

- *"Pedaqoji Universitetin Xəbərləri" (Riyaziyyat və təbiət elmləri seriyası);*
- *"Pedaqoji Universitetin Xəbərləri" (Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası);*
- *"Tarix, insan və cəmiyyət";*
- *"Fizika, riyaziyyat və informatika tədrisi";*
- *"Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri";*
- *"Təhsildə İKT".*

Qeyd: O cümlədən ötən tədris ilindən etibarən universitetdə "Magistr" elmi jurnalı təsis edilib ki, burada magistrantların elmi tədqiqatları müntəzəm olaraq dərc ediləcəkdir.

Beynəlxalq Əlaqələr

Beynəlxalq əlaqələr üzrə prorektorluq Azərbaycan Dövlət Pedaqoji Universitetinin və struktur bölmələrinin beynəlxalq fəaliyyətinin idarə olunması və inkişaf etdirilməsinə görə məsuliyyət daşıyır, beynəlxalq istiqamətlər üzrə maraqlarının və hüquqlarının qorunmasını, onların beynəlxalq əlaqələr üzrə fəaliyyətinin təkmilləşdirilməsi və ona nəzarəti təmin edir.

Məqsədlərimiz

- beynəlxalq əməkdaşlığın qurulması və inkişaf etdirilməsi;
- sahə üzrə beynəlxalq sənədlərin (saziş, anlaşma memorandumu, protokol, müqavilə) layihəsinin hazırlanması;
- universitet və ya struktur bölmələri tərəfindən dəvət olunmuş xarici ölkə nümayəndələrinin səfərlərinin təşkili və bu işə rəhbərlik etmək;
- xarici ali təhsil müəssisələri və beynəlxalq təşkilatlarla əməkdaşlıq müqavilələri və anlaşma memorandumlarının imzalanması və imzalanmış sənədlər çərçivəsində tələbə-müəllim-işçi mübadiləsinin aparılması;
- beynəlxalq proqram və layihələrin idarə edilməsi.

Tərəfdaş universitetlər

- Ukrayna Təhsil Elmləri Milli Akademiyasının Təhsilin İdarəedilməsi Universiteti (Ukrayna, Kiyev)
- Rusiya Dövlət Peşə Pedaqoji Universiteti (Rusiya, Yekaterinburq)
- Arad Aurel Vlaicu Universiteti (Rumıniya, Arad)
- Corc Vaşinqton Universitetinin Təhsil və insan inkişafı məktəbi (ABŞ, Vaşinqton)
- Qazax Milli Pedaqoji Qızlar Universiteti (Qazaxıstan, Almatı)
- Vytatus Magnus Universiteti (Litva)
- Əhməd Dahlan Universiteti (İndoneziya, Yogyakarta)
- İstanbul Kültür Universiteti (Türkiyə, İstanbul)
- Moskva Dövlət Humanitar Universiteti (Rusiya, Moskva)
- Wollongong Universiteti (BƏƏ, Dubay)
- Atatürk Universiteti (Türkiyə, Ərzurum)
- M.X.Dulati adına Taraz Dövlət Universiteti (Qazaxıstan, Taraz)
- Van Yüzüncü İl Universiteti (Türkiyə, Van)
- Yevseveva adına Moldova Dövlət Pedaqoji İnstitutu (Moldova)
- Hacettepe Universiteti (Türkiyə, Ankara)
- Yessenov adına Xəzər Dövlət Texnologiya və Mühəndislik Universiteti (Qazaxıstan, Aktau)
- Naberejnye Çelnıy Dövlət Pedaqoji Universiteti (Rusiya, Tatarıstan)
- Selçuk Universiteti (Türkiyə, Konya)
- Kopenhagen Universitet Kolleci –UCC (Danimarka, Kopenhagen)
- Final Beynəlxalq Universiteti (Şimali Kipr Türk Respublikası)
- Kotelnikov adına Radiotexnika və Elektronika İnstitutu (Rusiya, Moskva)
- Cənubi Qazaxıstan Pedaqoji Universiteti (Qazaxıstan, Şimkent)
- Akmulla adına Başqırdıstan Dövlət Pedaqoji Universiteti (Rusiya, Ufa)
- Kazan Federal Universitetinin Elabuj İnstitutu (Rusiya, Tatarıstan)
- Cenevrə Akademik Mərkəzi (İsveçrə, Cenevrə)
- Bihac Universiteti (Bosniya və Herseqoviniya)
- Litva Təhsil Emləri Universiteti (Litva, Vilnüs)

- *Penza Dövlət Pedaqoji Universiteti (Rusiya, Penza)*
- *Nizami adına Daşkənd Dövlət Pedaqoji Universiteti (Özbəkistan, Daşkənd)*
- *Draqomonov adına Milli Pedaqoji Universiteti (Ukrayna, Kiyev)*
- *İON Kreanga Dövlət Pedaqoji Universiteti (Moldova)*

ABŞ-ın Corc Vaşinqton Universiteti ilə Magistratura səviyyəsində Beynəlxalq İkili Diplom Proqramı - "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində ADPU və ABŞ-ın Vaşinqton şəhərində yerləşən Corc Vaşinqton Universiteti (CVU) ilə 31 yanvar 2020-ci il tarixində ikili diplom proqramı üzrə müqavilə imzalanıb. Müqaviləyə əsasən universitetin "Menecment (təhsilin təşkili və idarəolunması)" ixtisası üzrə magistratura pilləsini bitirən tələbələr hər iki universitetin diplomunu əldə edə biləcək (proqramın məzunları müvafiq olaraq CVU-nun "Təhsil və insan inkişafı: Təhsil siyasəti və liderlik" magistr ixtisasına da yiyələnəcək).

Mövlanə Mübadilə Proqramı (MMP) – Türkiyə daxilində təhsil verən ali təhsil müəssisələri ilə ölkə xaricində təhsil verən ali təhsil müəssisələri arasında tələbə və müəllim mübadiləsini həyata keçirmək məqsədi daşıyır. Partnyor universitetlərdən olan tələbə və müəllimlər qarşılıqlı olaraq bu proqramdan yararlana bilərlər. Mübadilə proqramında iştirak etmək istəyən tələbələr ən azı bir, ən çoxu iki semestr təhsil üçün, pedaqoqlar isə ən azı 2 həftə, ən çoxu 3 ay müddətində Türkiyədəki ali təhsil müəssisələrində dərs deməklə proqramdan faydalana bilərlər.

Erasmus+ Mübadilə Proqramı - Erasmus+ tərəfdaş universitetləri arasında tələbə, akademik və inzibati heyətin mübadiləsini həyata keçirir. Erasmus+ proqramı ilə xarici ölkələrdə təhsil almaqla, tələbələr ünsiyyət və dil bacarıqlarını inkişaf etdirə və gələcək fəaliyyətləri üçün vacib olan bir sıra bacarıqlara yiyələnə bilərlər. Proqram çərçivəsində bakalavriat və magistratura səviyyələrində təhsil alan tələbələr, eləcə də akademik və inzibati heyət mübadilədə iştirak edə bilərlər. Mübadilə müddəti 1 semestrdən 2 semestrə qədər davam edə bilər. ADPU Erasmus+ çərçivəsində Kopenhagen Universitet Kolleci – UCC (Danimarka, Kopenhagen) ilə əməkdaşlıq edir.

ADPU tələbələri və müəllim heyəti qeyd olunmuş tərəfdaş ali təhsil müəssisələrində mübadilə proqramı çərçivəsində təhsil alır və təcrübələrini bölüşürlər. Universitet eyni zamanda təhsilin keyfiyyətini artırmaq, beynəlxalq arenada əlaqələri genişləndirmək və beynəlxalq təcrübəni öyrənmək məqsədilə iki beynəlxalq təşkilatın üzvüdür. Bununla yanaşı, ADPU EURAS - Avrasiya Universitetlər Birliyi və KÜNİB – Kafkasya Universitetlər Birliyi kimi beynəlxalq assosiasiyalarla yaxından əməkdaşlıq edir.

ADPU-nun üzv olduğu beynəlxalq təşkilatlar

- ETEN – Avropa Müəllim Hazırlığı Şəbəkəsi – 2009-cu ildən
- İAUP – Universitet Prezidentlərinin Beynəlxalq Assosiasiyası 2017-ci ildən

Kitabxana və nəşriyyat

Azərbaycan Dövlət Pedaqoji Universitetinin kitabxanasının fondu 755.715 nüsxə ədəbiyyat təşkil edir. Bunlar içərisində 686.632 nüsxə kitab və kitabçalar, 3106 nüsxə jurnal, 1179 ədəd dissertasiya, 17.514 ədəd avtoreferat, 4085 ədəd magistr dissertasiyaları, 1016 nüsxə referativ jurnallar və 2270 nüsxə universitet müəllimlərinin elmi tədqiqat işləri yer alır. Eyni zamanda fondda 1000 nüsxə nadir kitablar mühafizə olunur.

2013-cü ildə kitabxana əməkdaşları tərəfindən 5 cildən ibarət "Azərbaycan Dövlət Pedaqoji Universitetinin professor-müəllim heyətinin 1921-2011-ci illərdə nəşr olunmuş əsərlərinin biblioqrafiyası" tərtib edilmişdir.

Kitabxananın fondunda hal-hazırda kiril əlifbası ilə 640 adda 47360 nüsxə, latın əlifbası ilə 9451 adda 75154 nüsxə dərslik və dərs vəsaiti mövcuddur. Fondun həcminə görə universitetin kitabxanası respublika universitet kitabxanaları arasında ikinci yerdədir. Kitabxana hazırda 4 şöbəsi, 27 əməkdaşı ilə oxuculara xidmət edir.

2019-cu ilin iyul ayından Kitabxana İnformasiya Mərkəzinin https://kitabxana.adpu.edu.az rəsmi saytı fəaliyyətə başlamışdır. Burada tələbələr elektron kitabxana xidmətindən istifadə edə bilərlər.

Universitetdə mətbəə 1948-ci ildə yaradılmış, 1963-cı ildən isə Nəşriyyat kimi fəaliyyətə başlamışdır. ADPU-nun daxili nəşriyyatında son 10 ildə bakalavr təhsil pilləsinə uyğun 1773 adda 20000 nüsxədən çox dərs vəsaiti, metodik vəsait və metodik göstərişlər çap olunmuşdur. Azərbaycan Respublikasının Təhsil Qanununa uyğun olaraq təhsildə baş verən ciddi dəyişikliklər Nəşriyyat şöbəsini işini bakalavr və magistr təhsil pilləsinə uyğun qurmağa yönəltmişdir. Bakalavr pilləsi üçün 18 ixtisas üzrə 508 fənn proqramı Təhsil Nazirliyinin qrifi ilə çap olunaraq istifadəyə verilmişdir.

Magistr pilləsi üzrə yeni tədris planlarına uyğun olaraq fənn proqram və dərsliklərinin hazırlanması işi də daim diqqət mərkəzində durur. Hazırda magistr səviyyəsi üzrə 28 fənnin proqramı işlənmiş və çap olunmuşdur. Bütövlükdə son bir ildə 150 ç.v. həcmində dərslik, dərs vəsaiti, metodik göstəriş, proqram çap olunmuşdur ki, bu da tələbələrin tədris ədəbiyyatına olan tələbatını ödəməyə xidmət edir.

Hazırda Nəşriyyat şöbəsində 6 adda elmi-metodik jurnal çap olunur.

Heydər Əliyev Mərkəzi və Heydər Əliyev adına muzey

Ulu öndər Heydər Əliyevin xatirəsini əbədiləşdirmək, onun zəngin və mənalı həyat yolunu, çoxşaxəli fəaliyyətini dərindən öyrənmək, təbliğ etmək, gələcəyin müəllimlərini dövlətçiliyə sədaqət və azərbaycançılıq ruhunda tərbiyə etmək ADPU-nun professor-müəllim heyətinin ən ümdə vəzifələrindəndir. Bu irsin qorunması və gələcək nəsillərə çatdırılması, hər bir gəncdə azərbaycançılıq hissinin formalaşdırılması, gənc nəslin dövlətçilik ənənələrinə sədaqət ruhunda tərbiyə olunması ən vacib şərtlərdən biridir. Ulu öndərin xatirəsinə ehtiram əlaməti kimi ADPU-nun əsas tədris binasının foyesində abidəsi qoyulmuş, böyük şəxsiyyətə aid nadir eksponatların sərgiləndiyi və professor-müəllimlərin, tələbələrin və universitetin qonaqlarının ziyarət məkanına çevrilən Heydər Əliyev Muzeyi yaradılmışdır. Dahi şəxsiyyətin zəngin irsinin gənc nəslə çatdırılması məqsədilə "Heydər Əliyev məktəbinin lektoriyası" təşkil edilmiş, ADPU-nun 2 saylı tədris binasında da möhtəşəm Heydər Əliyev Mərkəzi yaradılmışdır.

İctimaiyyətlə əlaqələr və tələbələrlə effektiv əks-əlaqə mexanizmləri

ADPU-da ictimaiyyətlə əlaqələr və tələbələrlə işi universitetin "Tələbələrlə iş və ictimaiyyətlə əlaqələr" şöbəsi yerinə yetirir.

ADPU Kütləvi İnformasiya Vasitələri və Sosial Mediada

Azərbaycan Dövlət Pedaqoji Universitetinin ictimaiyyətlə əlaqələrini daha da inkişaf etdirmək məqsədi ilə ADPU-nun Sosial Media Marketinq komandası - ADPU SMM 2020-ci ilin oktyabrından universitetin rəsmi sosial media hesablarını yenidən quraraq instaqram və tvitterdə vahid rəsmi səhifələr yaradıb, ilk dəfə universitetin rəsmi teleqram kanalını istifadəyə verib. Bir neçə ay ərzində fərqli konseptdə və operativ fəaliyyət göstərən səhifələr tələbələr arasında böyük auditoriya toplayıb, feysbuk, instaqram, teleqram, tvitter və yutubda minlərlə real izləyici kütləsi cəlb edərək oxşar səhifələr arasında öz fərqini ortaya qoya bilib. Universitetin mətbu orqanı olan "Gənc Müəllim" qəzeti yeni üslub və dizaynda, rəngli formada, çap və elektron qaydada dərc edilməyə başlanıb. "Gənc Müəllim" istedadlı tələbələrin yazıları, Vətən müharibəsi Şəhidləri, ADPU-nun məhşur məzunları haqqında silsilə maraqlı rublikalar təqdim etməklə yanaşı innovativ qəzetçiliyi də tətbiq edir. Belə ki, fevral sayından başlayaraq xəbərlərdə QR kod texnologiyası ilə lazımi məlumatlara – mətn, foto və videofayllara hiperistinadın verilməsi təmin edilir. Tələbə və müəllimlərimiz sadəcə QR kodu smartfonlarına oxudaraq bir növ "smart qəzet"dən lazımi informasiyanı daha əlçatan formada əldə edə bilirlər. Bu qəbildən bir neçə yenilik üzərində də iş gedir.

ADPU-nun KİV-lə əlaqəsi də operativ əsaslarla qurularaq universitetin fəaliyyətinin tanınmış informasiya agentlikləri tərəfindən müntəzəm olaraq işıqlandırılması təmin edilir.

Komanda ADPU-nun 100 illiyi ilə bağlı bu istiqamətdə fəaliyyətini genişləndirərək "Youtube" platformasında universitetin "ADPU TV" adlı onlayn televiziyasını istifadəyə verib. Davamlı fəaliyyətə başlayan layihənin fərqli cəhətləri sırasına kanalda təhsil mütəxəssisləri, təhsilverənlər, tanınmış alimlərlə müsahibələrin, canlı yayımların, müxtəlif səpkidə verilişlərin, rublikaların yayımı, tələbə fəaliyyətlərinin işıqlandırılması aiddir. Kanalın yayım və texniki heyəti tamamilə könüllü tələbələrdən ibarətdir.

ADPU TV-nin rəngarəng proqramları içərisində "Gənc Müəllim" qəzetinə anoji olaraq aylıq yayımlanan "ADPU Xəbərlər" verilişini xüsusilə qeyd etmək lazımdır.

Tələbələrlə əlaqə

Bir neçə ildir ADPU-da tələbə məmnunluğunun ölçülməsi məqsədi ilə mütəmadi əyani və elektron sorğular təşkil olunur. Tələbələrin tədris, sosial-mədəni məsələləri ilə bağlı universitet rəhbərliyi tərəfindən rektor, prorektorlar və dekanlar səviyyəsində müntəzəm olaraq səmimi görüşlər təşkil edilir. Son bir ildə qlobal pandemiya səbəbiylə fəaliyyətini elektron qaydada quran ADPU-da tələbələrlə görüşlər də onlayn platformalarda keçirilir. Son aylarda keçirilən belə ümumi görüşlərdə minlərlə tələbə iştirak edib. Bundan əlavə tələbələr istənilən vaxt tələbə təşkilatları, universitetin rəsmi saytı və ya işlək sosial media hesabları vasitəsi ilə onları narahat dən bütün məsələlər, o cümlədən təkliflərlə bağlı və ya istənilən şəxsə anında elektron müraciət edir, qısa

zamanda cavab alırlar. Əlavə olaraq bu yaxınlarda ADPU SMM komandasının rəsmi teleqram kanalına əlavə etdiyi "ADPUbot" süni intellekt botu ilə tələbələr ən çox verilən suallara cavab alır, universitet haqqında zəruri məlumatları əldə edirlər.
Hazırda universitetin mobil tətbiqi və əlavə ismarıc botları üzərində iş gedir.





Tələbə həyatı

Tələbələrlərin ictimai-sosial məsələləri ilə universitetin Sosial və humanitar məsələlər üzrə prorektorluğu məşğul olur. ADPU-da tələbələrin sosial-məişət şəraitinə xüsusi diqqət yetirilir. Universitetin tədris binalarında tələbələr üçün kampuslar üzrə müasir tipli yeməkxana və bufet fəaliyyət göstərir. Kampusdakı tibb məntəqələrində tələbə kontingentinə tibbi xidmət göstərilir. Universitetin Səbail və Gənclik tədris binalarında həyətyanı sahədə yaşıllıq salınmış və oturacaqlar yerləşdirilərək tələbələrin istifadəsinə verilmişdir. Univesitetin I və II saylı kampuslarında həmçinin 3 geniş və təchizatlı idman zalı, 2 böyük, hər bir kampusda isə kiçik akt zalları tələbələrin ixtiyarındadır. ADPU-nun əsas tədris binasındakı möhtəşəm böyük akt zalında 400 nəfər iştirakçı üçün istənilən böyük tədbirlərin keçirilməsi imkanı vardır.

Bundan başqa, tələbələrin asudə vaxtlarının maraqlı və faydalı keçməsi üçün universitetdə 5 tələbə təşkilatı fəaliyyət göstərir. Hər bir tələbə bu təşkilatların işində iştirak edə və ya tədbirlərinə qatıla bilər. Tələbələrlə iş və ictimaiyyətlə əlaqələr şöbəsinin kurasiyası ilə bu təşkilatlar, - Tələbə Həmkarlar İttifaqı Komitəsi, Tələbə Gənclər Təşkilatı, ADPU YAP Gənclər Birliyi, ADPU Təhsil Könüllüləri İctimai Birliyi və ADPU Türk Öğrenci Yönetim Konseyi yerli və əcnəbi tələbələrin sağlam düşüncəli, milli ruhlu, vətənini sevən vətəndaş kimi formalaşmalarında, onların sosiallaşmalarında mühüm rol oynayırlar.

Tələbələr arasında daimi intellektual oyunlar da keçirilir. “Nə? Harada? Nə Zanan?” , “Breyn Rinq” , “Xəmsə” , “Axtar tap” və başqa intellektual oyunlar üzrə liqa yarışları həyata keçirilir.

Mədəni-kütləvi tədbirlərin təşkilində Həmkarlar İttifaqı Komitəsi, Tələbə Həmkarlar İttifaqı Komitəsi (THİK), Tələbə Gənclər Təşkilatı (TGT), ADPU-nun Yeni Azərbaycan Partiyası Gənclər Birliyi (ADPU YAP GB), Təhsil Könüllüləri İctimai Birliyi ilə yanaşı fakültələr yaxından iştirak edir. Xüsusən ADPU-nun tələbə təşkilatlarının fəalları Tovuz döyüşləri, Vətən müharibəsi, pandemiya şəraitində yardımlaşma kampaniyalarının təşkilində və onlayn təhsillə bağlı işlərdə olduqca mütəşəkkil fəalliyət göstəribb.

Universitetimizdə yeni yaranan Ağsaqqallar Şurası, bu işlərə yeni qoşulan Elmi-təşkilati şöbə də bu tədbirlərin keçirilməsinə yaxından dəstək verir.

Tibbi xidmətin təşkili

ADPU-nun poliklinikası universitetin bütün tədris kampuslarında yerləşir və tələbə kontingentinə, ehtiyacı olan zaman müəllim və inzibati işçilərə də tibbi yardım xidmətini göstərir. Poliklinikanın əsas planlı işləri aşağıdakılardır:

- ADPU-ya yeni daxil olmuş tələbələri tibbi müayinədən keçirmək
- Rentgen müayinəsinin tibb qruplarına bölünməsini təşkil etmək
- Tələbələr arasında infeksion xəstəliklər aşkar olunduğu halda infeksion xəstəliklər üzrə ixtisaslaşmış xəstəxanalara göndərilməsini və xəstə ilə təmasda olanların yenidən müayinə olunmasını təşkil etmək
- Tələbələr arasında vaxtaşırı sanitar maarif işini aparmaq, aktual tibbi mövzularla bağlı məlumatları tələbələrə çatdırmaq
- Laboratoriya və sorğu yolu ilə helmentli xəstələrin aşkar edilməsi və müalicəsinin təşkili
- Tələbələr arasında psixoloji yardıma ehtiyacı olanları psixoloji xidmət mütəxəssislərinə yönəltmək

Şəki Filialı

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki Filialı bölgədə mədəni həyatın inişafında müstəsna əhəmiyyəti olan ali təhsil ocağıdır. Şəki filialı bir ali təhsil müəssisəsi kimi ötən 30 illik fəaliyyəti dövründə zəruri ehtiyac olan ixtisaslar üzrə 4 mindən artıq ilkin kadr hazırlığı həyata keçirmiş, bölgə ali məktəbi üçün qaneedici elmi-pedaqoji kadr potensialı formalaşdırmışdır. Respublikamızın şimal-qərb bölgəsində, qədim Şəkidə fəaliyyət göstərən bu ali məktəb 1991-ci ildə Bakı Dövlət Universitetinin Şəki Filialı adı altında fəaliyyətə başlamışdır. 1992-1993-cü tədris ilində filiala 8 ixtisas üzrə respublikanın 40 şəhər və rayonundan 87 nəfər tələbə qəbul olunmuş, bölgədə yaşayan 25 nəfər alim, habelə tanınmış, yüksək hazırlıqlı digər mütəxəssislər filialda tədris prosesinə cəlb olunmuşlar. Bəzi elm sahələri üzrə ixtisaslı mütəxəssislərin azlığına görə Bakıdakı ali məktəblərdən, xüsusən Bakı Dövlət Universitetindən də alimlər dəvət edilmişdir. Fəaliyyəti dövründə bu bölgə ali məktəbində 1200 nəfərdən artıq alitəhsilli pedaqoji kadr hazırlanmışdır.

Hal-hazırda bu təhsil ocağında professor-müəllim heyəti tərkibində 100 nəfərədək əməkdaş çalışır ki, onlardan da 10 nəfərə qədəri elmlər doktoru, professor, 20 nəfərdən çoxu fəlsəfə doktoru, dosent, 30 nəfərdən çoxu baş müəllim, 15 nəfərə qədəri magistr, 20 nəfərə qədəri isə doktorant və dissertantdır. Son 5 ildə filial əməkdaşlarından 2 nəfəri elmlər doktoru, 3 nəfəri isə fəlsəfə doktoru proqramı üzrə dissertasiya müdafiə edərək alimlik dərəcələri almışlar. Filial əməkdaşlarından 60 nəfərə yaxını respublikada, həmçinin ABŞ və Fransada müxtəlif təlim kurslarından keçərək sertifikatlar almışlar. Hazırda ADPU-nun Şəki Filialında professor-müəllim heyətinin elmi tədqiqat işlərinə cəlb edilməsi sahəsində xeyli uğurlu nəticələr əldə edilmişdir. ADPU-nun Şəki Filialının respublikanın bir sıra ali məktəbləri ilə yanaşı, Türkiyə, Rusiya, Fransa, Gürcüstan, Ukrayna və s. kimi ölkələrin elmi müəssisələri ilə sıx əməkdaşlıq əlaqələri vardır. Filialda Elmi Şura, Tələbə Gənclər Təşkilatı, Tələbə Elmi Cəmiyyəti və Tələbə Həmkarlar İttifaqı Komitəsi kimi strukturlar fəaliyyət göstərir.

Filial 3,2 hektar ərazidə 2 və 3 mərtəbəli yanaşı 2 binada yerləşir.

İxtisaslar

"Məktəbəqədər təhsil", "İbtidai sinif müəllimliyi", "Tarix və coğrafiya müəllimliyi", "Təhsildə sosial-psixoloji xidmət", "İngilis dili müəllimliyi", "Fransız dili müəllimliyi", "Riyaziyyat və informatika müəllimliyi" və "Azərbaycan dili və ədəbiyyatı müəllimliyi"
Hazırda filialda 900 nəfərədək tələbə təhsil alır.

Quba Filialı

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba Filialı bir ali təhsil müəssisəsi kimi ötən 30 illik fəaliyyəti dövründə zəruri ehtiyac olan ixtisaslar üzrə 2 mindən artıq ilkin kadr hazırlığı həyata keçirmiş, elmi-pedaqoji kadr potensialı formalaşdırmışdır. Respublikamızın şimal-şərq bölgəsində yerləşən, tarixi və mədəni mərkəz kimi tanınan qədim Qubada fəaliyyət göstərən bu ali məktəb 1991-ci ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Quba Filialı adı ilə fəaliyyətə başlamışdır. 1991-1992-ci tədris ilində filiala 4 ixtisas üzrə respublikanın 31 şəhər və rayonundan 120 nəfər tələbə qəbul olunmuş, bölgədə yaşayan 6 nəfər alim, habelə yüksək hazırlıqlı digər mütəxəssislər filialda tədris prosesinə cəlb olunmuşlar. ADPU-nun Quba Filialının respublikanın bir sıra ali məktəbləri ilə yanaşı, Türkiyə, Rusiya, Polşa ,Ukrayna və s. kimi ölkələrin elmi müəssisələri ilə sıx əməkdaşlıq əlaqələri də vardır. Filial ötən ilin may ayının 14-də ümummilli lider Heydər Əliyevin anadan olmasının 97-ci ilinə həsr edilən "Pandemiya şəraitində onlayn təhsil: reallıqlar və perspektivlər" mövzusunda beynəlxalq seminara ev sahibliyi edərək dünyanın və ölkəmizin 14 universitetini bir araya gətirib.

Filialda Elmi Şura, Tələbə Gənclər Təşkilatı, Tələbə Elmi Cəmiyyəti və Tələbə Həmkarlar İttifaqı Komitəsi kimi strukturlar fəaliyyət göstərir.

Filial 2,5 hektar ərazidə 2 və 3 mərtəbəli 2 binada yerləşir.

İxtisaslar: .

“İbtidai sinif müəllimliyi”, “Azərbaycan dili və ədəbiyyatı” müəllimliyi, “Tarix və coğrafiya müəllimliyi”, “Təhsildə sosial-psixoloji xidmət”, “Riyaziyyat və informatika müəllimliyi”, , “Riyaziyyat müəllimliyi”, “Coğrafiya müəllimliyi”, “Tarix müəllimliyi” və “Məktəbəqədər təlim və tərbiyə”

Hazırda filialda 900 nəfərədək tələbə təhsil alır.

Cəlilabad Filialı

Filial 2000-ci ildə Cəlilabad Kənd Təsərrüfatı Texnikumunun bazasında yaradılmışdır. Filial əhalisinin sayı 220 mindən çox olan Cəlilabad rayonunda yerləşir və regionda pedaqoji kadr hazırlığı və ömürboyu təhsili reallaşdırmaq məqsədi ilə gələcəyə proqnozlaşdırıl işlər aparır. Cəlilabad Filialı qısa bir zamanda əksəriyyətin istinad edəcəyi elm, təhsil, mədəniyyət və ideoloji bir mərkəzə çevrilmişdir. Filial təhsil islahatı ilə bağlı bütün məsələlərin və təhsil innovasiyalarının inteqrasiyası baxımından bölgədə xüsusi əhəmiyyət kəsb edir.

Filialın pedaqoji kollektivi dövlət siyasətinin strateji xətti olan təhsil siyasətinin qlobal dünyanın tələbləri səviyyəsində həyata keçirilməsi istiqamətində hər zaman bütün potensial gücü ilə çalışmış və budan sonra da bu istiqamətdə fəaliyyət dairələrini genişləndirəcəkdir. Müasir tələblərə cavab verən 2 kompüter mərkəzi, 2 Akt zalı, 140 nəfərlik böyük zal, 60 nəfərlik kiçik zal, 4514 adda nüsxə dərslik, dərs vəsaiti, monoqrafiya, digər elmi və bədii ədəbiyyatların cəmləşdiyi kitabxana vardır. Filialda hazırlanan ixtisaslar üzrə tələb olunan dərslik və dərs vəsaitlərinə olan tələbatı təmin etmək üçün kitabxanada İKT imkanarından istifadə edilir.

3 ictimai təkilat fəliyyət göstərir: - Tələbə Elmi Cəmiyyəti, - Tələbə Gənclər Təşkilatı, - Həmkarlar İttifaqı Komitəsi.

Fəaliyyətdə olduğu 21 ilə yaxın dövr ərzində ADPU-nun Cəlilabad Filialında bakalavr pilləsində pedaqoji kadr hazırlığı ilə yanaşı, pedaqoji kadrların ixtisasının artırılması, təkmilləşdirilməsi və yenidən hazırlanması sahəsində də səmərəli işlər aparılmışdır. Filial 3,2 hektar ərazidə 2 və 3 mərtəbəli yanaşı 2 binada yerləşir.

İxtisaslar: .

"Məktəbəqədər təlim və tərbiyə", "İbtidai sinif müəllimliyi", "Azərbaycan dili və ədəbiyyatı müəllimliyi" və "Tarix və coğrafiya müəllimliyi"

Hazırda filialda 400 nəfərədək tələbə təhsil alır.

Şamaxı Filialı

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1 iyul 1991-ci il tarixli 200 №-li qərarına əsasən V.İ.Lenin adına APİ-nin Şamaxı filialı kimi Şamaxı şəhərində fəaliyyətə başlamışdır. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 13 iyun 2000-ci il 349 nömrəli Fərmanı ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Şamaxı Filialının bazasında Azərbaycan Müəllimlər İnstitutunun (AMİ) Şamaxı Filialı yaradılıb. Azərbaycan Respublikası Prezidentinin 26 noyabr 2015-ci il tarixli, 1582 nömrəli Sərəncamına əsasən AMİ Pedaqoji Universitetə qoşulduğundan, onun bütün filialları ilə yanaşı Şamaxı filialı da ADPU-nun Şamaxı Filialına çevrilmişdir.

Fəaliyyətdə olduğu 30 il ərzində ADPU-nun Şamaxı filialında bakalavr pilləsində pedaqoji kadr hazırlığı ilə yanaşı, pedaqoji kadrların ixtisasının artırılması və yenidən hazırlanması sahəsində də səmərəli işlər aparılmışdır.

ADPU-nun Şamaxı Filialında professor-müəllim heyəti elmi tədqiqat işlərində xeyli uğurlu nəticələr əldə ediblər. Son 5 ildə filial əməkdaşları tərəfindən tədris üçün zəruri 20 dərslik və dərs vəsaiti, 10-a yaxın monoqrafiya, 10 proqram, 10 metodik vəsait, 140-dan çox respublikanın nüfuzlu jurnallarında və 20-dən çox xarici ölkələrin nüfuzlu jurnallarında məqalə, həmçinin 30-a yaxın xarici və 100-dən artıq respublika və beynəlxalq səviyyəli konfranslarda məqalə nəşr olunmuşdur.

ADPU-nun Şamaxı filialının respublikanın bir sıra nüfuzlu ali məktəbləri ilə yanaşı Türkiyə, Makedoniya, Rusiya, İtaliya və Gürcüstan Respublikasının nüfuzlu ali məktəbləri ilə əməkdaşlıq əlaqəsinin nəticəsidir ki, filialda 17-18 may 2017-ci il tarixlərində "III Beynəlxalq Həmzə Nigari Türk Dünyası Mədəni İrsi Simpoziumu" keçirilib. Növbəti il Türkiyə Respublikasının Amasiya şəhərində həmin simpoziumun davamı olaraq keçirilən tədbirdə filialın əməkdaşları da iştirak ediblər.

ADPU-nun təşkilatçılığı ilə Şamaxı filialında 2 iyun 2018-ci il tarixində respublika səviyyəli "Müəllim, məni yaradıcılığa ruhlandır!" mövzusunda keçirilən "Pedaqoji Oxu"da respublikanın 12 rayonundan ümumilikdə 200 nəfərdən çox qabaqcıl təhsil işçisi iştirak etmişdir.

Filialda Pedaqoji fakültə və onun nəzdində 3 kafedra fəaliyyət göstərir. Tələbələrin sosial fəaliyyətinin təşkili məqsədilə filialda Tələbə Elmi Cəmiyyəti, Tələbə Gənclər Təşkilatı, Tələbə Həmkarlar İttifaqı və Yeni Azərbaycan Partiyasının Gənclər Birliyi fəaliyyət göstərir.

Son 5 ildə ADPU-nun Şamaxı Filialının TGT-si 2 dəfə ADPU filialları arasında "İlin TGT-si" mükafatına layiq görülmüşdür.

İxtisaslar:

"İbtidai sinif müəllimliyi", "Azərbaycan dili və ədəbiyyatı müəllimliyi", "Tarix və coğrafiya müəllimliyi", "Riyaziyyat və informatika müəllimliyi", "Fizika müəllimliyi", "Təhsildə sosial-psxioloji xidmət" və "Məktəbəqədər təlim və tərbiyə"

Filialda ümumilikdə 550 nəfərədək tələbə təhsil alır.

Ağcabədi Filialı

13 iyun 2000-ci ildə Ümummilli Lider Heydər Əliyevin 349 saylı fərmanı ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şuşa Ailialının bazasında Azərbaycan Müəllimlər İnstitutunun Ağcabədi Ailialı kimi yaradılmışdır. Fəaliyyətdə olduğu dövr ərzində Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ağcabədi Ailialında bakalavr pilləsində pedaqoji kadr hazırlığı ilə yanaşı, pedaqoji kadrların ixtisasının artırılması və yenidən hazırlanması sahəsində də səmərəli işlər aparılmışdır. Hazırda ADPU-nun Ağcabədi Filialında professor-müəllim heyətinin elmi tədqiqat işlərinə cəlb edilməsi sahəsində xeyli uğurlu nəticələr əldə edilmişdir. Təkcə 2016-cı ildə filial əməkdaşları tədrisə zəruri olan 2 dərs vəsaiti, 1 monoqrafiya, 1 dərslik, 5 proqram, 40 elmi və elmi-metodiki məqalə, 1 metodik vəsait, 5 konfrans tezisi hazırlayaraq nəşr etdirmişdir. Filialın ABŞ, İngiltərə, Fransa, Rusiya, Türkiyə, Gürcüstan, Ukrayna və s. kimi ölkələrin elmi müəssisələri ilə sıx əməkdaşlıq əlaqələri vardır. Filialda Direktor Şurası, Tələbə Gənclər Təşkilatı, Tələbə Elmi Cəmiyyəti və Tələbə Həmkarlar İttifaqı Komitəsi kimi strukturlar fəaliyyət göstərir.

Filial 6,5 hektar ərazidə 3 mərtəbəli binada yerləşir.

İxtisaslar: .

"Riyaziyyat və informatika müəllimliyi, "Tarix və coğrafiya müəllimliyi", "Azərbaycan dili və ədəbiyyatı müəllimliyi", "İbtidai sinif müəllimliyi", "Fizika müəllimliyi", "Riyaziyyat müəllimliyi", "İngilis dili müəllimliyi" və "Məktəbəqədər təhsil"

Hazırda filialda 600 nəfərədək tələbə təhsil alır.

ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci

Azərbaycan Dövlət Pedaqoji Kolleci 1919-cu ildən bu günə kimi müxtəlif adlarla fəaliyyət göstərib. 2016-cı ildən etibarən keçmiş Bakı Sənaye Pedaqoji Kolleci də ADPK-nın tərkibinə qatılaraq iki kollecin bazasında ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci yaradılıb.

Kollecdə 250 nəfərədək müəllim fəaliyyət göstərir. Onların içərisində bir neçə nəfər elmlər doktoru, professor, 20 nəfərədək fəlsəfə doktoru, 20 nəfərədək baş müəllim, 30 nəfərdən çox dissertant var. Son illər ərzində Azərbaycan Dövlət Pedaqoji Kollecində təlim-tərbiyə işinin təşkili, tədris prosesində kollecin müəllim və tələbə heyətinin həyata keçirdiyi elmi-kütləvi, mədəni tədbirlər, tədris-metodiki materiallar, kütləvi informasiya vasitələrində dərc olunmuş, kollecin fəaliyyətini işiqlandıran yazılardan nümunələrinin hazırlanması, gənc müəllimlərlə işin təşkili, müəllim və tələbələrin açıq dərs icmalları və bədii yaradıcılıq nümunələri və sair ilə iş geniş vüsət almışdır.

Bu qocaman təhsil ocağında əksəriyyəti qızlardan ibarət olan tələbələrin estetik tərbiyəsinə xüsusi diqqət yetirilir. Bu gün ölkənin hansı bölgəsinə nəzər salsanız, Pedaqoji Kollecin məzunlarına rast gəlmək mümkündür. Onlar içərisində gənc nəslin təlim-tərbiyəsində böyük rolu olan müəllimlər, elm və mədəniyyət sahələrində fəaliyyət göstərən, dövlət qulluğunda çalışan, rəhbər vəzifədə işləyən ziyalılar, görkəmli insanlar az deyildir. Kollecin məzunları bir sıra ali məktəblərə qəbul olunaraq təhsillərini davam etdirirlər. Sevindirici haldır ki, "Əməkdar müəllim" adına layiq görülmüş ibtidai sinif müəllimləri arasında bu kollecin məzunları da vardır.

Hazırda Pedaqoji Kollecin zəngin maddi-texniki bazası vardır. Belə ki, müasir elmi-texniki avadanlıqlarla təchiz edilmiş 24 kabinet fəaliyyət göstərir. Akt zalı, yeməkxana, idman zalı, arxiv, muzey, oxu zalı və 80.000-dən çox kitab saxlanılan zəngin kitabxana, bədii-estetik və pedaqoji-psixoloji tələblərlə tərtib olunmuş və bəzədilmiş foye, dəhlizlər burada təlim-tərbiyəni həyatın və təhsil islahatlarının tələblərinə uyğun qurmağa imkan verir. Zəngin ənənələrə əsaslanan Azərbaycan Dövlət Pedaqoji Kolleci öz fəaliyyəti dövründə daim yeniləşərək ölkə təhsilinin çağdaş inkişaf mərhələsində özünəməxsus yer tutacaqdır.

İxtisaslar:

"Məktəbəqədər təlhsil", "Fiziki tərbiyə müəllimliyi", "Ailə və ev təhsili", "İnklüziv təhsil və "Sosial iş"

Hazırda 2 tədris binası ilə tələbələrə xidmət göstərir. Kollecdə əyani və qiyabi şöbələr üzrə ümumilikdə 4000 nəfərədək tələbə təhsil alır.

ADPU tərkibində M.Rahim adına 7№-li baza məktəbi

M.Rahim adına 7 nömrəli tam orta məktəb 2009-cu ildə “Microsoft Azərbaycan” tərəfindən "Novator Məktəblər Proqramı"na təqdim olunmuş məktəblər içərisindən seçilmişdir. Məktəb "Dünya İnnovativ Məktəblər şəbəkəsi"nə qoşulub və dünyanın bir sıra məktəblərinin qabaqcıl təcrübələrini öyrənir.

M.Rahim adına 7 nömrəli tam orta məktəb zəngin tarixi olan və bu gün müasirliyin önündə gedən qabaqcıl təhsil ocaqlarındandır. Məktəb ötən əsrin əvvələrində, 1928-ci ildə ibtidai orta məktəb (I-VII siniflər) kimi fəaliyyətə başlayıb və Paris Kommunasının adını daşıyıb. Dərslər rus dilində keçirilib. 1940-1946-cı illərdə məktəbin binasından hərbi hospital kimi istifadə olunub. 1950-ci ildən başlayaraq 7 nömrəli məktəb Azərbaycan dilində tədrisə başlayıb. 1977-ci ildə xalq şairi M.Rahimin 70 illik yubileyində məktəbə onun adı verilib. Məktəb "2008-2012-ci illərdə Azərbaycan Respublikasının təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı" çərçivəsində həyata keçirilən "Elektron məktəb" pilot layihəsinə daxil edilmişdir. Layihənin həyata keçirildiyi müddətdə tədris prosesinin təşkili və idarə olunmasında bir sıra müsbət dəyişikliklər baş vermişdir. Elektron jurnalların tətbiqi müəllimlərin valideynlərlə əlaqəsi, şagird nailiyyətlərinin valideynlər tərəfindən əldə edilməsini asanlaşmışdır. SMS vasitəsilə şagirdlərin qiymətləri haqqında valideynlərin məlumatlandırılması, elektron tədris resurslarının istifadəsi mövcuddur. Məktəbdə Dövlət Proqramı çərçivəsində "1 şagird, 1 kompüter" layihəsi tətbiq olunur.

Tələbələrin elmi tədqiqat işinin təşkili

ADPU-da Tələbə Elmi Cəmiyyəti 1940-cı ildə yaradılmışdır. Hazırda ADPU-nun 8 fakültəsində TEC fəaliyyət göstərir. İstedadlı tələbələr təcrübəli professor və dosentlərin rəhbərliyi ilə elmi tədqiqat işləri aparırlar. Hər il bütün fakültələrdə tələbələrin elmi konfransı keçirilir və onların elmi tədqiqat işlərinin nəticələri ayrıca toplu şəkilində çap olunur. Universitet üzrə də TEC-in konfransı yüksək səviyyədə təşkil edilir.

Tələbə Gənclər Təşkilatı

ADPU-nun ən fəal tələbə təşkilatlarından biri Tələbə Gənclər Təşkilatıdır (TGT). 2005-ci ildən fəaliyyət göstərən ADPU TGT-nin son illər həyata keçirdiyi tədbirlər, əldə etdiyi uğurlar diqqəti cəlb edir və müxtəlif qurumlar tərəfindən yüksək qiymətləndirilir. Qeyd edək ki, eyni zamanda ADPU-nun bütün filiallarında da TGT fəaliyyət göstərir. ADPU TGT ölkədə ən aktiv tələbə təşkilatlarından biridir.

- ADPU TGT-nin 2013-2015-ci illərdə sədri olmuş Sahil Qələndərov 2015-ci ildə "Səbail rayonunda ilin ən fəal gənci" seçilmişdir. Sahil Qələndərov 2019-2020-ci ilərdə UNESCO-nun beynəlxalq təqaüd proqramını qazanaraq Çində ikinci magistr təhsili almışdır və hazırda BSU-da rektor müşaviri vəzifəsində çalışır.
- ADPU TGT-nin 2015-2017-ci illərdə sədri olmuş Cavid Hüseynov 2016-cı ildə "İlin ən yaxşı TGT sədri" seçilmişdir. Hazırda ADPU-nun mətbuat katibidir.
- 26 dekabr 2017-ci il tarixində Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı tərəfindən ölkə universitetləri arasında "İlin TGT-si" mükafatına layiq görülmüşdür.
- 2 fevral 2021-ci ildə ADPU TGT yenidən ölkə üzrə bütün universitet TGT-lərini qabaqlayaraq "İlin TGT-si" seçilib.

Son 5 ildə TGT-nin ən uğurlu layihələri sırasında "Gələcəyin Qurucuları I Yay Liderlik Məktəbi" –(2016), "ADPU SURVIVOR" (2018), "Gələcəyin Qurucuları II Yay Liderlik Məktəbi" (2019), 2450 nəfər tələbənin iştirakı ilə 2016-cı ildə həyata keçirilmiş Cənubi Qafqazda ən böyük intellektual yarış, "ADDIM-ADDIM AZƏRBAYCAN" və başqa layihələri qeyd etmək olar. Ümumilikdə son 5 ildə 800-ə qədər layihə həyata keçirilmişdir.

2018-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin 6 tələbəsi Azərbaycan Respublikası Gənclər Fondunun elan etdiyi 11-ci qrant müsabiqəsinin qalibi olmuş və bu layihələri ADPU TGT icra etmişdir. Onlar arasından bütöv Azərbaycanı əhatə edən "Gələcəyin Qurucuları adlı Tələbə-gənclərin I Forumu" (2018-2019), "Şəhidimin hekayəsi" sənədli filmini (2019) xüsusilə vurğulamaq olar.

Tələbə Həmkarlar İttifaqı Komitəsi

ADPU-da 1926-cı ildən fəaliyyət göstərən universitetin ən köklü tələbə təşkilatlarından biri olan Tələbə Həmkarlar İttifaqı Komitəsi (THİK) tələbələrin sosial problemlərinin həlli, onların hüquqlarının müdafiə edilməsi, müalicə və istirahətlərinin təşkili istiqamətində tədbirlər həyata keçirir. Son illərdə ADPU THİK-in gördüyü işlər və əldə etdiyi uğurların bir neçəsi ilə aşağıda tanış ola bilərsiniz:

- ADPU THİK sədri dos. V. Məmmədov 2018-ci ildə ATİAHİ RK-nın 100 illik döş nişan ilə təltif edilmişdir.
- ADPU THİK 2016-cı ildə "İlin Həmkarlar Təşkilatı" adına layiq görülmüşdür.
- 2021-ci ildə ADPU THİK-in 19 nəfər üzvü Respublika Həmkarlar İttifaqı Komitəsinin yubiley döş nişanı ilə təltif edilmişdir.
- Son 5 ildə yüksəlişə doğru inamlı addımlar atan ADPU THİK yüzlərlə tədbir və layihələrin təşkilatçısıdır.
- 2015-2021-ci illər ərzində 60 tələbə THİK-in adlı təqaüdünə layiq görülmüşdür. 2018-2019-cu illərdə tələbələrin ictimai nəqliyyatdan istifadə imkanlarını yaxşılaşdırmaq üçün tələbələr Bakıkartlarla təmin edilmişdir. Sosial həssas qrupa daxil olan tələbələr talon sistemi ilə universitet bufetində pulsuz nahar yeməyi ilə təmin edilmişdir.
- Son illərdə "ADPU SƏS I", "ADPU SƏS II", "Bədii Yaradıcılıq Müsabiqəsi I", "Bədii yaradıcılıq Müsabiqəsi II", "Qış Liderlik Məktəbi", ADPU-da bir ilk olan "ADPU İSTEDAD" kimi böyük layihələrə uğurla imza atılmışdır. "Bahar Nağılı", "Bayraq Günü", "Yeni İl", "Novruz Şənliyi", "Məzun Günü", "Gülə-gülə yaşayaq" kimi cari tədbirlər çox yüksək səviyyədə təşkil edilir və tələbələr tərəfindən rəğbətlə qarşılanır.
- 2019-cu ilin aprel-may aylarında təşkil edilən tələbələrin ümumrespublika universiadasında tələbələrimiz 2 qızıl (Cüdo üzrə (60kq) və Sərbəst güləş üzrə (86kq)), 1 bürünc (Cüdo üzrə (86kq)) medal qazanmışdır. 26.11.2018 tarixində Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında (AHİK) ali məktəb tələbələri arasında futzal üzrə idman yarışına start verilmişdir. Yarışda tələbələrimiz finala yüksələrək II yerə çıxmışdır. Bundan başqa ADPU THİK-in təşkilatçılığı ilə şahmat yarışları, qızlararası və oğlanlararası voleybol yarışları, futbol yarışları keçirilmişdir.

Azərbaycan Dövlət Pedaqoji Universiteti
Yeni Azərbaycan Partiyası Gənclər Birliyi

ADPU YAP Gənclər Birliyi

ADPU-nun ən fəal, dinamik fəaliyyəti ilə seçilən təşkilatlarından biri də 1998-ci ildən fəaliyyət göstərən ADPU Yeni Azərbaycan Partiyası Gənclər Birliyidir. ADPU YAP GB-nin son 3 ildə əldə etdiyi kifayət qədər böyük uğurlar, sürətli inkişaf hər kəsin diqqətini cəlb edir və müvafiq qurumlar tərəfindən yüksək səviyyədə qiymətləndirilir.

- ADPU YAP GB-nin 2019-2020-ci illərdə sədri olmuş Cavid Hüseynov YAP Səbail rayon təşkilatı tərəfindən "Fəxri Fərman" ilə mükafatlandırılmışdır və hazırda o, ADPU-nun mətbuat katibi (Tələbələrlə iş və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı) vəzifəsini icra edir.

- ADPU YAP GB-nin 2020-2021-ci illərdə sədri olmuş sədri Tərlan Ağayev YAP Səbail rayon təşkilatı tərəfindən "Fəxri Fərman" və ADPU rəhbərliyi tərəfindən "İlin tələbəsi" adı ilə təltif edilib.

- ADPU YAP GB 2 il ardıcıl olaraq (2019 və 2020-ci illər) digər universitet təşkilatları arasından 83 rəqibini geridə qoyaraq I yerə layiq görülmüşdür.

Son 2 ildə ADPU YAP GB-nin təşəbbüsü və təşkilatçılığı ilə keçirilən ən uğurlu layihələr sırasında ADPU tarixin ən unudulmaz konsertləri sırasında göstərilən Beynəlxalq Tələbələr Gününə həsr olunmuş konserti (2019), "Müstəqillik kuboku" (2019), "ADPU İntellekt Liqası" (2019) "Qış kuboku" adlı iri miqyaslı intellektual yarışları, "Türk qürurunun dirçəlişi" (2019), "Payız gəldi", "Bizi adımızla tanıyın" adlı tədbirləri, "Uğurlu Gələcək" və bu kimi bir neçə seminarları, onlayn platformada böyük kütlə tərəfindən izlənilən "Azərbaycanın 44 günlük zəfər tarixi", "Qəlbin təmizdirsə, hekayən xoş bitər" (Türk yazar Hakan Mengüçlə görüş) və bu kimi bir neçə genişmiqyaslı layihələri qeyd edə bilərik.

Ümumiyyətlə ADPU YAP GB-nin təşəbbüsü və təşkilatçılığı ilə son 2 il ərzində 400-dən çox layihə həyata keçirilmişdir.

ADPU Təhsil Könüllüləri İctimai Birliyi

ADPU Təhsil Könüllüləri İctimai Birliyi (TKİB) universitetdəki tələbə təşkilatları arasında ən gəncidir və 2019-cu ilin sonlarından fəaliyyətə başlayıb. Təşkilatın əsas fəaliyyət istiqamətləri:

- Tələbələrə dəstək;
- Pedaqoji təhsil alan tələbələri təhsil tədqiqatlarına cəlb etmək;
- Təhsil siyasətində tələbələrin iştirakçılıq formasını yaratmaqdır.

Qısa zaman ərzində təşkilat öz spesifik fəaliyyət sahəsi üzrə ətrafında tələbələri toplamış və bu müddətdə bir çox uğurlara imza atmışdır. Onlardan bəziləri ilə aşağıda tanış ola bilərsiniz:

- ADPU rəhbərliyinin ictimai fəal tələbələrlə keçdirdiyi "Könüllülər ilinin yekunu" adlı görüşdə təşkilatın 2020-2021-ci illərdə sədri olmuş Taleh Mirzəyev və hazırkı sədri Sultanə Cəfərzadə "İlin tələbəsi" adına layiq görülüb. 5 nəfər fəal üzv isə "Fəxri Fərman"la təltif edilib (2020).
- "Gənclər Günü" ilə bağlı təşkilatın 3 nəfər fəalı ADPU-nun rektoru tərəfindən "Fəxri Fərman"la mükafatlandırılıb (2021).

Fəaliyyətdə olduğu iki illik dövrdə ADPU TKİB bir neçə uğurlu layihələr icra edib:

- Tələbələr üçün biznes koç, təlimçi, ORKHANWAY şirkətinin təsisçisi, sosial araşdırmaçı Orxan Şahbazın təqdimatında "Sosial davranış və Karyera" təlimi (2019) və onlayn "Düşüncə və davranış" mövzusunda təlimlər;
- "Mənim gözümdə - Təbiət" onlayn foto və rəsm müsabiqəsi (2020);
- ADPU-nun 100 illiyinə həsr olunmuş "#VİKİADPU – onlayn Vikipediya təlimləri" layihəsi. Layihə çərçivəsində vikipediyada məqalə yaratmağı mənimsəyən könüllü tələbələr tərəfindən 50-dən çox yeni məqalələr, o cümlədən ADPU-nun Vətən müharibəsində şəhid olan 5 tələbə və məzunu haqqında məqalələr yaradılıb (2021, fevral-aprel).
- "Şagirdə tələbə dəstəyi" şəhid, qazi və aztəminatlı ailələrin övladlarına ödənişsiz onlayn təhsil layihəsi (2021, aprel-iyun).

ADPU TKİB bu müddətdə bir çox təlim, görüş və müsabiqələr təşkil edib. Hazırda da təşkilat bir neçə irimiqyaslı layihəni icra edir.

ADPU Türk Öğrenci Yönetim Konseyi

ADPU-nun ən fəal tələbə təşkilatlarından biri də 2005-ci ildən fəaliyyət göstərən və universitetdə təhsil alan qardaş türkiyəli tələbələrin sosial-mədəni fəaliyyətlərini əlaqələndirən ADPU Türk Öğrenci Yönetim Konseyi (ADPU TÖYK) - Türk Tələbə İdarəetmə Şurasıdır. TÖYK-nın ADPU-dakı fəaliyyəti universitet rəhbərliyi və Türkiyənin müvafiq qurumları tərəfindən təqdirlə qarşılanır. Təşkilatın fəaliyyəti və uğurlarının bir qismi ilə aşağıda tanış ola bilərsiniz:

- 2017-2020-ci illər arasında ADPU TÖYK-nın sədri olmuş Hakan Köse 2019-cu ildə "Gənclər Günü" və "Beynəlxalq Tələbə Günü"ndə ADPU rektoru tərəfindən "Fəxri Fərman"larla təltif olunmuşdur.
- 2019-2020-ci illər arasında ADPU TÖYK-nın sədr müavini olan və 2020-ci ildən sədr kimi fəaliyyətə başlayan Akif Kaynar 2019-cu ildə "ASAN Xidmət"in təşkil etdiyi və 16 türk dövlət və dövlət qurumunun nümayəndələrinin qatıldığı "TÜRKSOY" proqramında "Ölkəsini ən yaxşı təmsil edən iştirakçı" sertifikatına layiq görülmüşdür.

ADPU TÖYK son 5 ildə Azərbaycanın digər universitetlərindəki TÖYK-lar içərisində önə keçərək öz fərqini ortaya qoymuş, ən yaxşılardan biri olmuşdur.

ADPU TÖYK-nın son 5 ildəki ən uğurlu və böyük layihələri sırasında aşağıdakıları göstərmək olar:

- Dahi Mustafa Kamal Atatürkün və onun əsəri olan müasir Türkiyənin mədəni mənzərəsini göstərən "Cümhuriyyət Günü" tədbiri (2017);
- Azərbaycan və Türkiyə şəhidlərinin xatirələrinə həsr olunan və silsilə şəkildə hər il keçirilən "Universitetlərarası Futbol Turniri" layihəsi (2018-2019-2020);
- "Ulu Öndər Mustafa Kamal Atatürkü Anma" tədbiri (2018);
- ADPU-da ilk dəfə qardaş Azərbaycan və türk xalqlarının mənəvi birliyini göstərən və tələbələrimiz arasında həmrəylik və əməkdaşlığı gücləndirən "Ramazan İftarı" proqramları (2018-2019);
- Möhtəşəm "Qafqaz İslam Ordusunun 100 illiyi" layihəsi (2018);
- Azərbaycan və dünya tarixinin ən qanlı səhifələrindən olan "Xocalı Soyqırımı"nı tanıtma tədbiri (2019) və ortaq milli-mənəvi dəyərlərimizi təbliğ edən daha neçə-neçə tədbirlər.

ADPU-da təqaüd imkanları

ADPU tələbələrinin 70 faizinə təqaüd almaq imkanı yaradılıb və bu nisbətin yaxın gələcəkdə 100 faizə çatdırılması hədəflənir.

ADLI TƏQAÜDLƏR:

ADPU hər tədris semestri universitet və fakültələr üzrə ən yüksək nəticə göstərən tələbələr üçün 170 manatlıq adlı təqaüdlər təqdim edir. Bakalavriat pilləsində təhsil alan hər bir tələbənin universitetdə ümumilikdə 350 AZN təqaüd almaq imkanı var.

Universitet üzrə hər semestr ən yüksək akademik nəticə toplayan tələbələr üçün "Heydər Əliyev" adına təqaüd

Müxtəlif fakültələr üzrə hər semestr ən yüksək akademik nəticə toplayan tələbələr üçün

"Abbasqulu ağa Bakıxanov" adına təqaüd

"Qafur Rəşad Mirzəzadə" adına təqaüd

"Nizami Gəncəvi" adına təqaüd



"Akademik Zahid Xəlilov" adına təqaüd

"Akademik Mehdi Mehdizadə" adına təqaüd

"Akademik Həsən Abdullayev" adına təqaüd



"Akademik Yusif Məmmədəliyev" adına təqaüd

"Üzeyir Hacıbəyli" adına təqaüd



"Abdulla Şaiq" adına təqaüd

Qeyd: *Universitetə 500 baldan yüksək balla qəbul olan və ixtisas kodlaşdırmasında ilk yerdə pedaqoji ixtisas seçən tələbələr Təhsil Nazirliyinin "Gələcəyin Müəllimi" təqaüdündən də yararlana bilərlər.*

Azərbaycan Dövlət Pedaqoji Universiteti

1. Səbail (əsas) tədris binası
Bakı şəh., AZ1000, Səbail rayonu, Üzeyir Hacıbəyli küç., 68

2. Gənclik tədris binası
Bakı şəh., AZ1072, Nərimanov rayonu, Akademik Həsən Əliyev küç., 104

3. Nəsimi tədris binası
Bakı şəh., AZ1007, Nəsimi rayonu, Nəsib bəy Yusifbəyli küç., 60

4. Təbriz tədris binası
Bakı şəh., AZ1008, Nəsimi rayonu, Koroğlu Rəhimov küç., 13

Universitetlə əlaqə

Tel. (+994 12) 493 00 32
Fax. (+994 12) 598 37 71
E-poçt: office@adpu.edu.az
www.adpu.edu.az
Facebook.com/adpu.eduaz
Instagram.com/adpu.eduaz

ADPU-nun
Tanıtım Filmi

Tərtibçilər: Cavid HÜSEYNOV, Günay BAĞIRLI, Taleh MİRZƏYEV
Redaktor-korrektor: Taleh MİRZƏYEV
Dizayner: Elvin VAHİDOV